

VERGİ

**İsmayıllı rayon ictimaiyyətinin nümayəndələri ilə görüş**

SƏH. 3



LAYİHƏ

**AZAD SAHİBKARLIQ YENİ ÇAĞIRIŞLAR VƏ MEYARLAR MÜSTƏVİSİNDƏ**

SƏH. 4



İNANC

**Çillələr**

SƏH. 7

iqtisadi qüdrətimiz naminə!

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

№ 07 (902)
19 - 25 fevral
2016-cı il

Həftəlik iqtisadi, ictimai-siyasi müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır



# Biz artıq öz iqtisadi inkişafımızı ancaq qeyri-neft sektorunun əsasında qururuq və qurmalıyıq

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Tovuz rayonunda səfərdə olub.

**Son illərdə ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi ilə müşayiət olunur. Ölkəmizin şəhər və rayonlarında aparılan quruculuq işləri çərçivəsində park və xiyabanların salınması, mövcud olanların yenidən qurulması da diqqətdən kənarda qalmır.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolunun açılışında iştirak edib.

Azərbaycan Prezidentinə avtomobil yolunun yenidən qurulması layihəsi çərçivəsində görülən işlər barədə məlumat verilmiş, bildirilmişdir ki, dövlətimizin başçısının 2014-cü il 20 avqust tarixli Sərəncamı ilə Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolunun inşasına Azərbaycan Prezidentinin ehtiyat fondundan Tovuz Rayon İcra Hakimiyyətinə tikintinin başlanması üçün ilkin olaraq 3 milyon manat vəsait ayrılıb. Tovuz-Hunanlar-Qaraxanlı-Düz Cırdaxan avtomobil yolu 32 min əhalinin yaşadığı 13 məntəqəni əhatə edir. Avtomobil yolu rayon mərkəzinin kəndlərlə nəqliyyat əlaqəsini yaxşılaşdırmağa, həmçinin iqtisadiyyatın və turizmin inkişafına mühüm töhfə verəcək.

* * *

Fevralın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən Tovuz şəhər 7 saylı körpələr evi-uşaq bağçasının, Tovuzçay su anbarının açılışında, Qovlar şəhərindəki Gənclər Evinin açılışında iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncə şəhərində səfərdə olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Gəncədə "İmamzadə" dini kompleksində aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

Azərbaycan Prezidenti İlham Əliyev əvvəlcə respublika ictimaiyyətinin nümayəndələri ilə din xadimləri ilə görüşmüşdür.

Dövlətimizin başçısı mərasimdə nitq söyləmişdir.

* * *

Fevralın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncədə Abbas Səhhət adına 1 nömrəli şəhər xəstəxanasında aparılan əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuş, Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbin binasının, "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin balansında olan 240 yerlik körpələr evi-uşaq bağçasının əsaslı təmirdən sonra açılışlarında iştirak etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin istehsal sahələri ilə tanış olmuşdur.

Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi diqqət göstərilir, yeni sənaye və istehsal müəssisələri yaradılır. Ölkədə gedən sənayeləşmə prosesinə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi də mühüm töhfələr verir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan zavod 2004-cü ilin dekabrında fəaliyyətə başlayıb. İnkişaf tempini sürətlə artıran zavod ötən illərdə istehsal sahələrini genişləndirməkdə davam edib. Fəaliyyətinə OKA, UAZ, ÇAN-QAN avtomobillərinin yığımı ilə başlayan müəssisə hazırda 35 çeşiddə texnika istehsal edir. 2007-ci ilin mart ayından burada "Belarus" markalı traktorların yığımına başlanılıb. Traktorların yerüstü yığım xətti 8 postdan ibarətdir. Burada 3 minədək dəstləşdiricinin yığımı aparılır. 2007-ci ildən bəri zavodda 7 modeldə 6300 "Belarus" markalı traktoru istehsal edilib. "Aqrolizinq" ASC-yə 5737 traktor təhvil verilib. Zavodda Almaniyanın "MAHA" şirkətinin müasir standartlara cavab verən əyləc sisteminin sınaq stendi quraşdırılıb. Burada istehsal edilən bütün texnika – traktor və avtomobillər tam şəkildə sınaqdan keçirilir. 2015-ci ildə zavod fəaliyyəti dövründə ən yüksək göstəricisinə nail olub. Ötən il müəssisə 86 milyon 583 min manatlıq məhsul istehsal edib. Qonşu Gürcüstana 358 min manat dəyərində texnika ixrac olunub. Keçən ildən zavodda "KaMAZ" və "URAL" markalı avtomobillərin də yığımına başlanılıb.

Dövlətimizin başçısına məlumat verilmişdir ki, ölkəmizdə aparılan genişmiqyaslı tikinti-quruculuq işlərində, həmçinin kənd təsərrüfatında istifadə edilən maşın və texnikalara olan ehtiyacın ödənilməsində bu müəssisənin fəaliyyəti önəmli rol oynayır. Xarici tərəfdaşlarla səmərəli əlaqələr qurulması nəticəsində zavod istehsal olunan maşın və texnikaların çeşidini ildən-ilə artırır. İndi müəssisə Minsk təkərli dartıcılar zavodu ilə əməkdaşlıq çərçivəsində ağır yük daşıyan qoşqu istehsal edir. Daha çox istifadə olunan "MAZ" markalı avtomobillərin istehsalı ildən-ilə artır. Son 8 ildə 20 modeldə "MAZ" markalı avtomobil yığılıb. Bu avtomobillərin yığımının 40-50 faizini yerli istehsal təşkil edir. Zavodda müasir tələblərə cavab verən qaynaq və boyama, sudaşıyan avtomobillər üçün çənlər hazırlayan sahələr fəaliyyət göstərir. Avtomobil qoşquları əsasən yerli istehsaldır.

Bildirilmişdir ki, istehsal xətlərinin sıxlığı nəzərə alınaraq, 30 min kvadratmetr sahəsi olan yeni istehsalat sahəsi yaradılır. Burada ən müasir avadanlıqla təchiz olunan texnoloji xətlər quraşdırılacaq. Yeni istehsal sahəsində "MAZ" markalı avtobusların quraşdırılması nəzərdə tutulur. Bu, həm də 120-150 əlavə iş yerinin açılmasına imkan verəcək. Hazırda müəssisədə 600-dən artıq işçi çalışır. Zavodda işçilər pulsuz yemək və nəqliyyatla təmin olunublar.

Belarusdan nümayiş üçün gətirilən "CNG" qaz mühərrikli avtobus Bakıda istismar üçün münasibdir. Avtobusun Bakıda sınaqdan keçirilməsi üçün "BakuBus" MMC ilə razılığa gəlinib.

SƏH. 2

# Azərbaycan dünya bazarında təkcə neft və qaz ixrac edən ölkə kimi yox, digər məhsulları ixrac edən ölkə kimi yerini tapmalıdır




**Fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "İqlim və enerji təhlükəsizliyi. İstiləşmə hələ də davam edirmi?" mövzusunda keçirilən panel-müzakirədə iştirak edib.**

Tədbirdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva da iştirak ediblər.

Panel-müzakirənin aparıcısı Melinda Kreyn tədbirin mövzusunun dünyada iqlim və enerji təhlükəsizliyinə həsr olunduğunu demişdir. O, bu tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin, bir çox mötəbər qonaqların iştirak etdiyini bildirmişdir. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev aparıcının suallarını cavablandırmışdır. Həmin müsahibəni diqqətinizə çatdırırıq.

**-Cənab Prezident, sualıma Sizdən başlamaq istəyirəm. Azərbaycanda səhralaşma, daşqınlar, quraqlıq müşahidə edilir. Uzun müddətdir sərhədyanı münaqişəniz olan Ermənistan ilə əhəmiyyətli su resurslarını paylaşırsınız. Sizcə, iqlim təzyiqi Qafqazda geosiyasi gərginlikləri daha da kəskinləşdirəcəkmi?**

Prezident İlham ƏLİYEV: Əlbəttə ki, bu, hamımızın üzləşdiyi bir təhlükədir. Azərbaycana gəlincə, müstəqilliyimizin son 25 ilində atmosferə qaz tullantılarını azalda bilmişik. 1990-cı ildə tullantılar 70 milyon tondan çox təşkil edirdi, indi isə təqribən 50 milyon tondan çoxdur və bu, iqtisadiyyatımızın həmin müddətdə kəskin şəkildə artmasına baxmayaraq, baş verirdi.

SƏH. 2

**Bioloji Təbabət Klinikası**
**Almaniya - Azərbaycan**




Üstünlükləri:

- Özünübərpa və müdafiə mexanizmlərinin pozulmuş funksiyalarının bərpası
- Xəstəliyin deyil xəstənin müalicəsi
- Yalnız təbii tərkibli potensiyalaşdırılmış dərman preparatlarından istifadə

MÜAYİNƏLƏR:

- Avtomatlaşdırılmış müasir laboratoriya vasitəsilə biokimyəvi, hematoloji, kliniki analizlər
- Çoxfunksiyalı, məsafədən idarə olunan rəqəmsal rentgen vasitəsilə onurğa, sümük- oynaq xəstəliklərinin müayinəsi
- Qaranlıq sahəli mikroskop vasitəsilə qanın funksional və keyfiyyət analizi
- 4D rejimli USM aparatı vasitəsilə ginekoloji, baş- beyin və qarın boşluğunun müayinəsi
- KT (kompüter tomoqrafiya)
- İkienerjili-rentgenoloji densitometr vasitəsilə sümük-oynaq xəstəliklərinin müayinəsi (osteoporozun erkən aşkarlanması)
- Videoendoskopiya (bronxoskopiya, qastroskopiya, kolonoskopiya, kolposkopiya)
- AFGEN Genetik diaqnostika mərkəzi (Türkiyənin Ege Universitetinin professoru Afiq bərdəlinin rəhbərliyi ilə fəaliyyət göstərən müasir laboratoriyada bütün növ genetik xəstəliklərin dəqiq analizləri aparılır)
- BRD (biorezonans diaqnostika)- vasitəsilə virus və qurd xəstəliklərinin müayinəsi və müalicəsi
- EEQ -beyin hüceyrələrinin aktivliyi öyrənilir
- PZR laboratoriya aparatı vasitəsilə dəqiq və keyfiyyətli analizlər
- Elektromioqrafiya – periferik sinir sistemi xəstəliklərinin diaqnostikası və oxşar xəstəliklərlə differensial diaqnostikası aparılır.

MÜALİCƏLƏR:

- Plazmaferez
- Homeosiniatriya
- Ozonoterapiya
- Hidrokolonoterapiya
- Drenaj terapiya
- İynəbatırma (akupunktura)
- Tibbi kosmetologiya
- Şərq təbabəti ilə müasir təbabətin sintezi Biopunktura
- Osteopatiya
- Manual terapiya
- Autohemoterapiya
- Hirudoterapiya

Müasir aparatura ilə təchiz olunmuş müasir fizioterapiya şöbəsində ESWT, WINPLATE, Lazer, Maqnit apparatlarıyla elektroterapiya, Reabilitasiya, Massaj, Kinezioterapiya müalicələri aparılır.

"BiolojiTəbabət"klinikası
Ünvan: 3-cü mkr. Pişəvəri küç., 110
("Memar Əcəmi" metro stansiyasının yaxınlığı)
Telefon: (012) / (070) / (050) / (055) 430 89 89
e-mail:bioklinik@biolojitababat.az

# Azərbaycan dünya bazarında təkcə neft və qaz ixrac edən ölkə kimi yox, digər məhsulları ixrac edən ölkə kimi yerini tapmalıdır

*(əvvəli 1-ci səhifədə)*




Lakin, əlbəttə, çağırışlar və təhlükələr mövcuddur. Bizim üçün əsas təhlükə ondan ibarətdir ki, bizi su ilə təchiz edən əsas çaylarımız mənbəyini qonşu ölkələrdən götürür və xüsusilə Ermənistanda Araz çayının çox ciddi çirklənməsi müşahidə olunur. Bu da bizim hamımız üçün təhlükədir. Çayın çirklənməsinin dayandırılması ilə bağlı etdiyimiz bütün müraciətlərimizə baxmayaraq, əfsuslar olsun ki, Ermənistan bu siyasəti davam etdirir. Sizin də qeyd etdiyiniz kimi, biz iyirmi ildən artıqdır ki, təcavüz və işğaldan əziyyət çəkirik. Ərazilərimizin 20 faizi işğal altındadır. İnsanların əziyyət çəkməsindən savayı, təbiətimiz də əziyyət çəkir. Çünki hər hansı beynəlxalq nəzarət altında olmayan bu ərazilərdə çoxlu qeyri-qanuni fəaliyyətlər, xüsusilə meşələrin qırılması baş verir. Çünki bu ərazilər öz qədim ağac və meşələri ilə çox məşhurdur. İndi isə bu meşələr kommersiya məqsədləri üçün kəsilir.

Biz ağac əkirik. Biz hər il milyonlarla ağac əkirik. Biz qazlaşdırma siyasətini davam etdiririk. Bu gün biz elektrik enerjisinin generasiyası üçün əsasən sudan və qazdan istifadə edirik. Baxmayaraq ki, Azərbaycanın Kioto protokoluna əsasən heç bir öhdəliyi yoxdur, bu, bizim bu işə töhfəmizdir. Biz bu məsələyə çox sadiqiq və müstəqillik illərində fəaliyyətimiz də bu prosesdə etibarlı tərəfdaş olduğumuzu nümayiş etdirir.

**Aparıcı: Sualımı qısaca davam etdirmək istəyirəm. Vacib sayılan Kür-Araz hövzəsində su çatışmazlığı perspektivi ilə üzləşmə Azərbaycanı Ermənistan ilə bu resursların müştərək paylaşmasının idarə olunmasında daha da sıx əməkdaşlığa vadar edirmi?**

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, biz işğalı davam etdirən ölkə ilə daha da böyük anlaşmaya malik olmaq istəyirik. Sizə deyə bilərəm ki, bu yaxınlarda - yanvar ayında Avropa Şurasının Parlament Assambleyası qonşu regionlara suyun təchizatında problem törətməsinə görə Ermənistanı pisləyən qətnamə qəbul etmişdir. Parlament Assambleyasında əksəriyyət tərəfindən qəbul edilmiş bu qətnamədə əziyyət çəkən insanlara iztirab verməyə son qoymağa çağırış edilir. Əfsuslar ki, onlar Dağlıq Qarabağ Azərbaycanın hələ de-fakto hissəsi olanda tikilmiş su anbarından mülki əhaliyə problemlər törətmək üçün istifadə edirlər.

Əlbəttə ki, Kür və Araz çaylarından götürülən su bizim üçün çox vacibdir. Buna baxmayaraq, biz dağlarımızdan Bakı şəhərinə su nəql edən boru kəməri tikmişik və regiondan nisbətən az asılıyıq. Lakin yenə də bu, bizim üçün ciddi problemdir. Buna baxmayaraq, bizim Xəzər dənizi kimi böyük su hövzəmiz var. Biz dəniz suyunun irriqasiya məqsədləri və sonradan içməli su kimi istifadə edilməsi üçün onun duzsuzlaşdırılması prosesinə başlamışıq.

**Aparıcı: Cənab Prezident, Paris razılaşmasında qeyd edildiyi kimi, Sizin üzərinizə götürdüyünüz iqlim öhdəliklərində, enerji sektorunun müasirləşdirilməsi üçün bir neçə amil sadalanmışdı. Əgər ölkəniz Paris razılaşmasının öhdəliklərini həqiqətən də ciddi qəbul edirsə, onda enerji əsası iqtisadiyyatı şaxələndirmək üçün hazırda etdiyinizdən daha da çox səylər göstərilməməlidirmi? Zənnimcə, enerji ölkənizin gəlirinin 70 faizini təşkil edir.**

**Prezident İlham ƏLİYEV:** Biz bu məsələnin üzərində işləyirik. Lakin bir məsələni unutmamalıyıq, Azərbaycan müstəqilliyini bərpa edəndə iqtisadiyyat tamamilə məhv edilmişdi, yoxsulluq və durğunluq geniş vüsət almışdı. Odur ki, dünya xəritəsində yerimizi müəyyənləşdirməyin yeganə yolu ölkəmizin inkişafı üçün enerji ehtiyatlarımızdan istifadə etmək idi. Buna görə də müstəqilliyimizi bərpa etdikdən sonra üç ildən daha da az müddətdə - 1994-cü ildə biz dünyanın əsas enerji şirkətlərini Azərbaycana gəlməyə və sərmayə yatırmağa dəvət etdik. O zaman Xəzər dənizi ilk dəfə Amerika və Avropa neft şirkətlərinin birbaşa cəlb edildiyi ərazi olmuşdu. O zaman bizim üçün enerji təhlükəsizliyi və enerji siyasəti müasirləşmək, şaxələnmək və infrastruktura sərmayə yatırmaq yolu idi. Çünki neft satışından əldə etdiyimiz vəsait suveren rifah fondunda saxlanılırdı və eyni zamanda, neftdən asılılığı azaltmaq üçün infrastruktura sərmayə kimi yatırılırdı.

Bu şaxələndirmə siyasətinin nəticəsində indi ümumi daxili məhsulumuzun 70 faizindən çoxu artıq qeyri-neft sektorunun payına düşür. Əlbəttə ki, biz ixrac əməliyyatlarında neft qiymətlərindən asılıyıq. İxracımızın 90 faizini neft və qaz təşkil edir.

İndi isə biz özəlləşdirmə, iqtisadiyyatımızın şaxələndirilməsi və biznes mühitinin yaxşılaşdırılması da daxil olmaqla, neft və qazdan asılılığı azaltmaq üçün irimiqyaslı islahatlar həyata keçiririk. Yeri gəlmişkən, neftin qiymətinin kəskin şəkildə - dörd dəfə ucuzlaşması bizim üçün daha çox texnologiyaya, qeyri-neft iqtisadiyyatına, kənd təsərrüfatına, informasiya-kommunikasiya texnologiyalarına sərmayə yatırmaq baxımından fürsət idi. Növbəti illərdə bütün planlarımızı uğurla həyata keçirə bilsək, qəti əminəm ki, Azərbaycan neftdən asılılığı tamamilə aradan götürəcək.

Qeyd etdiyim kimi, bu yaxınlarda neftin qiymətinin aşağı düşməsi səbəbindən Azərbaycan üçün neftdən sonrakı dövr artıq başlamışdır və biz dünya bazarında təkcə neft və qaz ixrac edən ölkə kimi yox, digər məhsulları ixrac edən ölkə kimi yerimizi tapmalıyıq.

**Aparıcı: Maraqlısı odur ki, Sizin iqlim öhdəliklərinizdə tərəfinizdən bəyan olunan məqsədlərə çatmaq üçün əngəl törədəcək əsas potensial məhdudiyyət kimi neftin qiymətinin ucuzlaşması göstərilir.**

**Prezident İlham ƏLİYEV:** Əlbəttə ki, bu, bizim gəlirlərimizə təsir edəcək. Lakin, eyni zamanda, düşünürəm ki, bu, bizi islahatların aparılmasına daha da ciddi sövq edəcək və Azərbaycanın gələcək inkişafı neftin qiymətindən, yaxud da hasilatın həcmindən asılı olmayacaq. Eyni zamanda, biz minlərlə, on minlərlə iş yeri yaradacaq və Avropaya şaxələnmək imkanını verəcək "Cənub" qaz dəhlizi layihəsini həyata keçiririk. Yeri gəlmişkən, Avropa əlavə həcmdə təbii qaz əldə edəcək və həm də istixana effektini yaradan karbon qazının atmosferə tullantısını azaldacaq. Bu enerji təhlükəsizliyi təkcə marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsi layihəsidir və biz istehsalçılara, tranzit və istehlakçı ölkələrə fayda verəcək bir layihədir.

**Aparıcı: Uyğunlaşma üzərinə əsas diqqəti cəmləyərək yenə də sualımı Prezident Əliyevə vermək istəyirəm. Ekologiyaya mənfi təsirin aradan qaldırılmasına böyük vəsait yönəldilir. Lakin Azərbaycan kimi ölkələrə kömək etmək üçün uyğunlaşmaya kifayət qədər vəsait ayrılırmı? Fikrimcə, ölkəniz uyğunlaşma üçün tələb olunan xərclərin ən azı 3 milyard avro təşkil etdiyini təxmin edir. Əgər bu rəqəm bundan da artıq deyilsə, Siz sizə lazım olan köməyi əldə edirsiniz?**

**Prezident İlham Əliyev:** Əslində, Azərbaycanın, ümumiyyətlə, siyasəti ondan ibarətdir ki, biz qazandığımızdan daha az xərcləməliyik. Əsas investisiya layihələri, o cümlədən enerji sahəsinə sərmayələr əsasən özümüzün və tərəfdaşlarımızın maliyyə resurslarından qaynaqlanırdı. Buna görə də biz heç bir əsaslı maliyyə dəstəyini gözləmirik.

Son zamanlar Azərbaycanın əsaslı dərəcədə maliyyə resurslarını topladığını nəzərə alaraq hətta neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi bizim iqtisadi inkişafımıza təsir edə bilməmişdi. Ötən il ümumi daxili məhsulumuz 1 faizdən çox artmışdı və qeyri-neft sektorunda 8 faizdən çox artım qeydə alınmışdı. Bu da əsasən şaxələndirmə və qeyri-neft infrastrukturuna investisiyaların yatırılması siyasəti sayəsində mümkün olmuşdur. Ona görə də bu, bizim üçün, əlbəttə ki, regionda ümumi vəziyyət üçün çox vacibdir. Dayanıqlı inkişaf bizim məqsədimiz və hədəfimizdir. İqlim dəyişikliyi məsələsinə gəldikdə isə əvvəldə dediyim kimi, Kioto protokoluna əsasən heç bir öhdəliyimizin olmamasına baxmayaraq, bizim iqtisadi siyasətimiz, bərpa olunan enerji mənbələrinə yatırdığımız investisiyalar, 10-dan çox su elektrik stansiyasının tikilməsi, bütün bunlar bizim verdiyimiz töhfədir.

Yenə də qeyd edirəm ki, əgər tərəfdaşlarımızla birlikdə, məsələn, neft-qaz sahəsinə sərmayə yatırmasaydıq, bu gün bizim elektrik stansiyalarımız Sovet İttifaqı vaxtındakı kimi istismar edilərək maye yanacaqla işləyərdi. Bu gün bütün elektrik stansiyalarımız ya təbii qazla, ya da su ilə işləyir. Beləliklə, bunlar enerji sektoruna yatırılan investisiyalardır və onlar da öz növbəsində atmosferə karbon tullantılarının azalmasına müsbət təsir edir. Bütün bu məsələlər bir-biri ilə bağlıdır və əlbəttə ki, biz bu risklərin idarə edilməsində vacib rol oynamaqda davam edəcəyik.

* * *

Avropa Komissiyasının enerji birliyi üzrə sədr müavini Maroş Şefçoviç, ABŞ Senatının ətraf mühit və ictimai işlər komitəsinin üzvü Şeldon Uaythaus, "Allianze SE" şirkətinin baş icraçı direktoru, Münxen Təhlükəsizlik Konfransının Məşvərət Şurasının üzvü Oliver Bate, "Green Peace International" təşkilatının sabiq icraçı direktoru Kumi Naydoo iqlim dəyişikliyi ilə bağlı ictimai rəyin yaradılması istiqamətində işlərin görülməsinin vacibliyini bildirdilər. Qeyd olundu ki, iqlim dəyişikliyi təbii sərvətlərə, insanların həyat tərzinə təsir göstərir, belə olan halda insanlar iqlim mühacirlərinə çevrilirlər. Bundan əlavə, dünyada suyun səviyyəsinin artması baxımından insanların təhlükəli ərazilərdə məskunlaşmasının qarşısının alınması ilə bağlı daha çox işlər görülməlidir.

Çıxış edənlər enerji təhlükəsizliyi ilə bağlı fikirlərini bölüşdülər. Sonra müzakirələr aparıldı.

**Ermənistanın Xarici İşlər Nazirliyinin əməkdaşı:** Mən Ermənistan Xarici İşlər Nazirliyindənəm və sualım Prezident Əliyevədir. Cənab Prezident, Siz Ermənistanı suyun çirkləndirilməsinə və digər ciddi siyasi məsələlərə görə günahlandırırsınız və bununla bağlı bizim Ermənistanda fərqli mövqeyimiz var. Azərbaycanda baş verən hər bir mənfi hala görə Azərbaycanın Ermənistanı günahlandırmasını necə izah edə bilərsiniz? Məsələn, beynəlxalq ictimaiyyət Azərbaycanı insan hüquqları sahəsində vəziyyətə görə tənqid etdikdə Azərbaycan Ermənistanı günahlandırır. Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti Azərbaycanla bağlı ciddi qətnamələr qəbul etdikdə Azərbaycan yenə də Ermənistanı və erməni lobbisini tənqid edir. Hətta Azərbaycanda neft istehsalı azaldıqda "British Petroleum" şirkəti Ermənistanla əlbir olmasına görə tənqid edilmişdi. Cənab Prezident, bütün bu çətin suallara bir cavabın verilməsi daha asan deyilmi?

**Prezident İlham ƏLİYEV:** Əvvəla, qeyd etmək istəyirəm ki, sizin sualınızda ifadə olunan fikirlər tamamilə səhvdir. Biz Ermənistanı sizin qeyd etdiyiniz səbəblər üzündən günahlandırmırıq. Əvvəla, təkcə Azərbaycan deyil, Ermənistan da Avropa Şurası, Avropa Parlamenti tərəfindən insan hüquqlarının kobud şəkildə pozulmasına, prezident və parlament seçkilərinin saxtalaşdırılmasına və hökumətinizin törətdiyi bir çox digər işlərə görə tənqid edilir.

Biz Ermənistanı işğala görə günahlandırırıq və bunu təkcə biz etmirik. Bunu ən ali beynəlxalq qurum olan BMT Təhlükəsizlik Şurası da edir. BMT Təhlükəsizlik Şurası erməni qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Biz Ermənistan xalqını yox, Ermənistan hökumətini yalnız azərbaycanlı olduqlarına görə günahsız insanların erməni vandalları tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımına görə günahlandırırıq və bu soyqırımı 10-dan artıq ölkə tərəfindən tanınır. Biz Ermənistanı öz doğma torpaqlarında qaçqına çevrilmiş bir milyon qaçqın və məcburi köçkünlərimizin iztirabına görə günahlandırırıq. Onların 40 mini Dağlıq Qarabağdandır, 750 mini Azərbaycanın digər işğal olunmuş rayonlarındandır, 200 mini isə Ermənistandan qovulmuşdur və etnik təmizləməyə məruz qalmışdır.

Bütün bunlar sizin işğalınızın nəticəsidir. Bu, sizin qonşu ölkəyə qarşı yürütdüyünüz siyasətin nəticəsidir və işğala son qoyulmalıdır. Regionda sülhə nail olmaq üçün birinci şərt Azərbaycan torpaqlarının işğaldan azad edilməsidir.

**Aparıcı: Prezident Əliyev, icazə verin müzakirəmizin əvvəlində verdiyim sualın digər tərəfini Sizə ünvanlayım. Bəziləri hesab edir ki, su sahəsində konkret əməkdaşlıq üzərində işin aparılması tərəflərin bir-birinə qarşı etimadını artıra bilər və bəzi digər məsələlərdə daha böyük əməkdaşlığın aparılması istiqamətində atılmış bir addım ola bilər. Sizcə, bu, doğrudurmu?**

**Prezident İlham ƏLİYEV:** Əlbəttə ki, bir aydan da az müddət öncə Strasburqda Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul edilən qətnamədə bu məsələ üzrə çox vacib elementə diqqət yönəldilir və xüsusilə su resurslarının idarə edilməsi ilə bağlı törətdiyi problemlərə görə Ermənistanın üzərinə məsuliyyət qoyulur. Buna görə, Ermənistan və Azərbaycan arasında əməkdaşlığın qurulması üçün torpaqların işğaldan azad edilməsi prosesinə başlanılmalıdır. Etimadın artırılması üçün ən yaxşı yol torpaqların işğaldan azad olunmasına başlamaqdır. Çünki təkcə tarixən əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağ yox, 7 ətraf rayon da tamamilə məhv edilib. İşğal 20 ildən artıqdır ki, davam edir.

Ermənistan status-kvonun dəyişilməz olaraq qalmasını istəyir. Biz isə status-kvonu dəyişmək istəyirik. Beləliklə, birinci addım torpaqların işğaldan azad edilməsidir, sonra isə biz əməkdaşlığa başlayacağıq.

**Aparıcı: Çox sağ olun.**

# Biz artıq öz iqtisadi inkişafımızı ancaq qeyri-neft sektorunun əsasında qururuq və qurmalıyıq



*(əvvəli 1-ci səhifədə)*

Bundan əlavə, gələcəkdə İtaliya və Almaniyadan gətirilən şassi üzərində müxtəlif markalı avtobusların karkas və salonunun istehsalını təşkil etmək mümkündür. Yerli istehsal avtobusların maya dəyərinin 25-30 faizədək aşağı düşməsinə təsir göstərəcək. Zavodun mütəxəssisləri Almaniyanın "HALLER" kommunal avadanlığının "MAZ" şassinin üzərində quraşdırılması üçün konstruktiv dəyişiklik edib.

Diqqətə çatdırılmışdır ki, müəssisənin Gürcüstanda nümayəndəliyi fəaliyyət göstərir. Müəssisə istehsal etdiyi texnika ilə bağlı tenderlərdə iştirak edir. Hazırda zavod belaruslu tərəfdaşlarla birgə Gürcüstanda xüsusi təyinatlı texnika və avtobuslarla bağlı tenderdə iştirak edir. Paralel olaraq, Türkiyə və Qazaxıstan bazarına çıxmaq üçün ciddi işlər görülür.

* * *

Fevralın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Gəncə - 2016-cı il Avropa Gənclər paytaxtı" parkında yaradılan şəraitlə, Gəncəçay çayı boyunca yaradılan park-bulvar kompleksi ilə tanış olmuş, 35/6 kV-luq "Nizami" yarımstansiyasının açılışında iştirak etmişdir.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Baba Rzayev məlumat vermişdir ki, Gəncənin böyük bir hissəsinin elektrik təchizatının yaxşılaşdırılması, eləcə də ərazidə elektrik enerjisinə artan tələbatın ödənilməsi, 35 kV-luq elektrik şəbəkələri ilə əlaqələndirilməsi məqsədilə 35/6 kV-luq "Üzgüçülük" yarımstansiyasının yerində müasir tipli tam qapalı 35/6 kV-luq yeni "Nizami" yarımstansiyası tikilib. Yarımstansiyanın tikintisinə 2015-ci ilin aprelində başlanılıb. Yeni yarımstansiya 6 mindən çox abonentin elektrik enerjisi ilə təminatını daha da yaxşılaşdıracaq. Ümumi sahəsi 1700 kvadratmetr olan yarımstansiyada 35/6 kV-luq iki transformator və 35/6 kV-luq qapalı paylayıcı avadanlıq quraşdırılıb.

Burada həm də Gəncə Şəhər Elektrik Şəbəkəsinin inzibati binası yerləşir. Binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub, Ümummilli Liderin həyat və fəaliyyətindən bəhs edən guşə yaradılıb. Yarımstansiyada və inzibati binada 80-ə yaxın işçi çalışacaq.

Prezident İlham Əliyev yarımstansiyanı işə salmışdır.

* * *

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncə Dövlət Filarmoniyasının binasında tikinti işlərinin gedişi ilə tanış olmuş, Azərbaycan Dövlət Aqrar Universitetinin tələbə yataqxanasının, hərbi qulluqçular üçün inşa edilən şəhərciyin açılışlarında iştirak etmişdir.

# İsmayıllı rayon ictimaiyyətinin nümayəndələri ilə görüş






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda verdiyi tövsiyələrə uyğun olaraq, vergilər naziri Fazil Məmmədov fevral ayının 12-də İsmayıllı şəhərində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Tədbirdə yerli icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatların rəhbərləri, sahibkarlar, rayon ziyalıları iştirak ediblər.

Görüşdə çıxış edən vergilər naziri Fazil Məmmədov dünyada baş verən proseslər, enerji və maliyyə bazarlarında yaranmış iqtisadi vəziyyət, bunun ölkəmizə təsirləri barədə danışıb, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkənin büdcə gəlirlərinin neftdən asılılığının azaldılması, qeyri-neft sektorunun inkişafının təmin edilməsi, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində apardığı işlər və atdığı qətiyyətli addımlar nəticəsində bütün dünyanı bürümüş qlobal böhranın Azərbaycan iqtisadiyyatına təsirinin minimallaşdırılmasına nail olunduğunu vurğulayıb.

F.Məmmədov qeyd edib ki, bu gün Azərbaycan beynəlxalq aləmdə uğurla inkişaf etməkdə olan bir ölkə kimi qəbul edilir. Dövlətimizin başçısı İlham Əliyev dünyanın ən nüfuzlu beynəlxalq tədbirlərinin yüksək kürsülərindən çıxış edərək, ölkəmizin inkişaf təcrübəsi barədə danışır, dünyada gedən proseslərə Azərbaycanın baxışlarını, mövqeyini açıqlayır. Davosda keçirilən Dünya İqtisadi Forumunda istər «Yeni enerji tarazlığı» mövzusunda sessiyada, istərsə də dünya iqtisadi liderlərinin «2016-cı il üçün mütləq xarakterli tövsiyələr» mövzusunda qeyri-rəsmi toplantısında Prezident İlham Əliyevin çıxışları, Böyük Britaniya, Almaniya, Küveyt, Norveç və BMT-nin birgə təşkilatçılığı ilə keçirilən Suriya məsələsi ilə bağlı beynəlxalq konfransda iştirak üçün Azərbaycanın dövlət başçısının Londona dəvət olunması da ölkəmizin beynəlxalq aləmdə və iqtisadi münasibətlərdə fəal tərəfdaşlardan biri olduğunun, dünyada sabitliyin bərqərar olmasına töhfələr verə biləcəyinin dünya birliyi tərəfindən qəbul edilməsinin təzahürüdür.

Vergilər naziri iqtisadi inkişaf dinamikasının saxlanması, yerli istehsalın dəstəklənməsi, sahibkarlığa geniş dövlət dəstəyinin göstərilməsi, onlara verilmiş vergi güzəştləri, vətəndaşların sosial rifahının yaxşılaşdırılması, əhalinin yaranmış yeni iqtisadi vəziyyətdən zərər çəkməməsi üçün Azərbaycan hökuməti tərəfindən atılan addımlar barədə görüş iştirakçılarına geniş məlumat verərək, mövcud iş yerlərinin ixtisarına yol verilməməsinin və yeni iş yerlərinin yaradılmasının qarşıda duran ən mühüm vəzifələrdən olduğunu bildirib.

Açıq dialoq şəraitində keçən görüşdə F.Məmmədov ölkə Prezidenti tərəfindən 2016-cı ildə iqtisadi şaxələndirmə, regional inkişaf, qeyri-neft sektorunun inkişafının prioritet istiqamətlər kimi müəyyənləşdirildiyini iştirakçıların nəzərinə çatdırıb. Bildirilib ki, Azərbaycan hökumətinin məqsədi ölkədə sahibkarlığın inkişafı, qeyri-neft sektorunun ümumi daxili məhsulda və büdcə daxilolmalarında payının artırılmasına, sahibkarlıq fəaliyyətində canlanmaya nail olmaqdır. Bu mənada, 2016-cı ildə regionlarda sahibkarlığın inkişafına xüsusi önəm veriləcəkdir.

Vergilər naziri yerli sahibkarlara müraciətlə onları öz fəaliyyətlərini genişləndirməyə, rayonun potensialından maksimum istifadə etməyə, yerli istehsalla bağlı layihələrə sərmayə yatırmağa çağırıb. Qeyd olunub ki, İsmayıllı rayonunda kənd təsərrüfatı və turizmin daha da sürətlə inkişaf etməsi üçün böyük potensial mövcuddur. Rayonda iqtisadi inkişafı təmin etmək, yerli gəlirləri artırmaq istiqamətində işlər görülür. Bununla belə, İsmayıllının perspektiv inkişafını sürətləndirəcək layihələrin həyata keçirilməsi zəruridir. Rayonda müasir sənaye müəssisələrinin, yeni sahibkarlıq subyektlərinin açılması, investorların cəlb edilməsi, yeni iş yerlərinin yaradılması istiqamətində səyləri artırmaq lazımdır.

Nazir 2015-ci ildə İsmayıllıda 720 yeni iş yerinin, o cümlədən 495 daimi iş yerinin açıldığını, 2016-cı ildə rayonun Qalınçaq kəndində illik istehsal gücü 1000 ton olan quşçuluq fabrikinin, Diyallı kəndində ölkəmizdə ilk velosiped zavodunun, Xanəgah kəndində inşaat materialları zavodunun, şəhərdə tikiləcək kartof-çipsi istehsalı müəssisəsinin inşasının başa çatdırılacağının təqdirəlayiq olduğunu vurğulayıb.

F.Məmmədov bildirib ki, ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə ölkədə aqrar sahə daha da inkişaf etdirilməli, daxili istehsal artırılmalıdır. Bu baxımdan, İsmayıllıda da kənd təsərrüfatının inkişafının böyük perspektivləri vardır. O, məmnunluq hissi ilə qeyd edib ki, BMT-nin İnkişaf Proqramı və Avropa Birliyinin dəstəyi ilə rayonda aqrar sahənin inkişaf etdirilməsi ilə bağlı iki layihə həyata keçirilir. Bu layihələr çərçivəsində İsmayıllı şəhəri, Topçu, Qurbanəfəndi, Sumağallı, Diyallı, Yeniyol, Çəmənli kəndlərində istixanalar yaradılmış və yüksək keyfiyyətli tərəvəz məhsulları istehsal edilməkdədir. 2015-ci ildə rayonda 50-dən çox təsərrüfatda istixana sahələri yaradılıb və gələcəkdə onların sayının 100-ə çatdırılması nəzərdə tutulur. Keyvəndi kəndində 1500 başlıq heyvandarlıq kompleksində inşaat işləri davam etdirilir. Rayonun Qalınçaq kəndi ərazisində illik istehsal gücü 1000 ton olan hind toyuğu fabrikində inkubator sexi, vitaminli yem istehsal edən dəyirman quraşdırılacaq. Fabrik tam gücü ilə fəaliyyətə başladığı zaman burada 200-250 nəfər işlə təmin olunacaqdır.

İsmayıllının böyük taxılçılıq rayonu hesab olunduğunu vurğulayan F.Məmmədov rayon üzrə məhsul istehsalının əvvəlki illə müqayisədə 20%-dək artaraq 100 min tondan yuxarı olmasını müsbət qiymətləndirib. Rayonun tarixən böyük üzümçülük ənənələrinə malik olduğunu xatırladan nazir bu sahənin böyük gəlir gətirən və əməktutumlu sahə hesab olunduğunu, onun inkişaf etdirilməsinin rayon iqtisadiyyatına böyük gəlir gətirəcəyini və yeni iş yerləri yaradacağını qeyd edib. F.Məmmədov hazırda ümumi sahəsi 1000 hektara yaxın olan üzüm plantasiyalarının gələcəkdə genişləndirilməsi, bununla bağlı emal sənayesinin inkişafına nail olunması, mövcud istehsal güclərinin, xüsusilə də ixrac potensialının artırılmasının zəruriliyini vurğulayıb. İsmayıllının İvanovka kəndinin Nikitin adına kolxozunun bazasında aqroparkın yaradılması məsələsinə toxunan nazir bu işin 2016-cı ildə başa çatdırılması üçün imkanların mövcud olduğunu qeyd edib.

İsmayıllının Azərbaycanın əsas turizm istiqamətlərinə daxil olan bölgələri sırasında yer aldığını diqqətə çatdıran F.Məmmədov bu sahədə rayonun böyük potensiala malik olduğunu, turizmin dağ gəzintisi, ekoloji turizm, tarixi turizm, ailə turizmi kimi sahələrinin inkişafına sərmayə cəlb edilməsi istiqamətində səyləri artırmağın vacibliyini vurğulayıb.

Vergilər naziri yerli icra hakimiyyətini və bələdiyyələri sahibkarlarla partnyorluq münasibətlərini dərinləşdirməyə, onlara hərtərəfli yardım göstərməyə, saəhibkarları isə öz növbəsində yeni iş yerləri yaratmağa, istehsal sahələrini genişləndirməyə, bütün bunlarla yanaşı, fəaliyyət göstərdikləri bölgələrdə öz sosial məsuliyyətlərini dərk etməyə çağırıb. O, İsmayıllı rayonunun dövlət büdcəsinin dotasiyasından asılılığının azaldılmasının vacibliyini də vurğulayıb.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov rayonun sosial-iqtisadi inkişafı ilə bağlı məsələlərin həlli istiqamətində görülən işlərdən danışaraq, yaxın illərdə büdcədən ayrılan dotasiyaları tamamilə aradan qaldırmağa çalışacaqlarını bildirib.

Görüşdə çıxış edən sahibkarlar və ictimaiyyət nümayəndələri göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını bildirib, İsmayıllı rayonunda yeni istehsal sahələrinin və iş yerlərinin yaradılması, sahibkarlara kredit resurslarının ayrılması, kənd təsərrüfatı məhsullarının satışı və xarici bazarlara çıxarılmasında sahibkarlara köməklik göstərilməsi və s. ilə bağlı təkliflərlə çıxış ediblər.

Vergilər naziri Fazil Məmmədov bütün müraciət və təkliflərin nəzərə alınacağını bildirib.

## "Avtomobil nəqliyyatı haqqında" qanuna əsasən sərnişin avtomobil nəqliyyatı vasitələrinin sürücülərinə dair tələblər dəyişdirilir

Bunu fevralın 12-də Milli Məclisin növbəti iclasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə demişdir. O, qeyd etmişdir ki, avtobuslarla sərnişin daşımalarına "D" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan (yaşı 22-dən az və 65-dən çox olmayan və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübəsi 5 ildən az olmayan) sürücülər buraxılır. Həmçinin "DE" kateqoriyası üzrə nəqliyyat vasitələrini idarə etmək hüququnu təsdiq edən sürücülük vəsiqəsi olan (yaşı 25-dən az və 65-dən çox olmayan və "D" kateqoriyasına daxil olan avtonəqliyyat vasitəsini idarə etmək sahəsində təcrübəsi 3 ildən az olmayan) sürücülər avtobuslarla sərnişin daşımalarına buraxılır. Əvvəlki qanunda isə "D" kateqoriyası üçün yaş həddi 21 müəyyən edilmişdi.

## Bu qanun layihəsinin qəbul edilməsi Prezidentin sahibkarlıqla bağlı qarşıya qoyduğu məsələlərin həllini sürətləndirəcək

Bunu fevralın 12-də Milli Məclisin növbəti iclasında "Lisenziyalar və icazələr haqqında" qanun layihəsini təqdim edən Ziyad Səmədzadə demişdir. O, bildirmişdir ki, sənədin qəbul edilməsi sahibkarlıq mühitinin daha da yaxşılaşdırılması, maneələrin aradan qaldırılması, yeni təsərrüfat subyektlərinin yaradılması istiqamətində əhəmiyyətli nəticələr verəcək. Prezidentin sahibkarlıqla bağlı qarşıya qoyduğu məsələlərin həllini sürətləndirəcək. Qanun layihəsi Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslər tərəfindən ayrı-ayrı fəaliyyət növlərinin və hərəkətlərin (tədbirlərin) həyata keçirilməsi üçün xüsusi razılıq (lisenziya) və icazə verilməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.




Komitə sədri demişdir ki, qanun layihəsində müəyyənləşdirilən müddətdə icazə verən orqan sahibkarların müraciətlərini cavablandırmırsa, lisenziya avtomatik olaraq verilmiş hesab edilir. Bununla əlaqədar qanun layihəsinə yeni müddəa əlavə edilib. Bununla da, hər hansı yoxlayıcı orqan sahibkarı yoxlayanda lisenziyanın olub-olmadığını birbaşa elektron portaldan yoxlaya biləcək.

* * *

Həmin iclasda Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" qanun layihəsi barədə danışan İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirmişdir ki, qanun layihəsi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 2-ci və 26-cı bəndlərinə uyğun olaraq, zərərvurma təhlükəsi yaradan dempinqli və yaxud subsidiyalaşdırılan idxala, həmçinin yerli istehsal sahəsinə ciddi zərər vuran və yaxud ciddi zərərvurma təhlükəsi yaradan artmış idxala qarşı həyata keçirilən tədbirləri, o cümlədən antidempinq, kompensasiya və xüsusi rüsumların formalaşdırılması və tətbiqi qaydalarını tənzimləyir.

## IOTA İcraiyyə Şurasının 100-cü iclası keçirilib

IOTA-nın əsas qərarverici və idarəetmə orqanı olan İcraiyyə Şurasının Parisdə keçirilmiş 100-cü iclasında Şuraya üzv dövlətlərin (Niderland Krallığı, Avstriya, Azərbaycan, Çexiya, Danimarka, Fransa, Sloveniya, İspaniya və Rumıniya) vergi administrasiyalarının və IOTA Katibliyinin nümayəndələri iştirak etmişlər.

İclasda təşkilatın üç aylıq (noyabr 2015 - yanvar 2016) fəaliyyəti barədə hesabat, 2017-ci il üçün iş planı, prioritet sahələrin müəyyən edilməsi, «Vergi administrasiyalarında məlumatların tətbiq olunması və təhlili» layihəsi, nəşriyyat və kommunikasiya strategiyası, beynəlxalq vergitutma sahəsində fəaliyyət göstərən aparıcı təşkilatlar ilə əməkdaşlığın gücləndirilməsi, daxili qaydalara yenidən baxılması kimi məsələlər müzakirə edilmişdir.

Tədbirdə vergilər nazirinin müşaviri, Beynəlxalq münasibətlər və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin rəisi Ələkbər Məmmədov iştirak etmişdir.

## Vergi ödəyicilərinin məlumatlandırılması aktualdır

Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində vergi ödəyicilərini məlumatlandırmaq və vergi sistemi haqqında təsəvvürü təkmilləşdirmək məqsədilə beynəlxalq seminar keçirilmişdir.



Müzakirələrdən alınan nəticələrə görə, vergi ödəyicilərinin məlumatlandırılması üçün sosial media daha effektiv kanal hesab edilməli, maksimum az xərc çəkilən resurslardan istifadə artırılmalı, materialların yenidən dizaynı və kampaniya xarakterli mesajların hazırlanması zamanı beynəlxalq təcrübələrdən istifadə edilməli, effektiv marketinq və təbliğat-təşviqat fəaliyyəti artırılmalıdır.

Seminara Azərbaycanla yanaşı, Avstriya, Bolqarıstan, Xorvatiya, Çexiya, Estoniya, Monteneqro, Rumıniya, Slovakiya, İspaniya, Albaniya, Finlandiya, Gürcüstan, İrlandiya, İtaliya, Latviya, Litva, Polşa, Moldova, Norveç, Portuqaliya, Rusiya və İsveçrənin də nümayəndələri qatılmışlar.

Tədbirdə Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin Xidmət mərkəzi şöbəsinin rəisi Nicat Mehdiyev iştirak etmişdir.

# Azərbaycan qiymətli kağızlar bazarının vahid ticarət, ticarətsonrası və nəzarət sistemi istifadəyə verilib

Fevralın 17-də Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində (QKDK) Azərbaycan qiymətli kağızlar bazarının vahid ticarət, ticarətsonrası və nəzarət sistemi istifadəyə verilib.

QKDK-nın aparat rəhbəri Bəxtiyar Əzizov qeyd edib ki, "Azərbaycan qiymətli kağızlar bazarının vahid ticarət, ticarətsonrası və nəzarət sistemi" "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa və ondan irəli gələn normativ hüquqi aktlara uyğun hazırlanıb. Sistemin yaradılması "Kapital bazarlarının müasirləşdirilməsi" layihəsi çərçivəsində həyata keçirilib. Bu komponentin əsas məqsədləri bazar iştirakçıları arasında elektron interfeysin yaradılması, bazarın işləmə səmərəliliyinin artırılması və risklərin idarə olunması proseslərinin təkmilləşdirilməsindən ibarətdir.

B.Əzizov diqqətə çatdırıb ki, 2014-cü ildə bu layihə çərçivəsində adı çəkilən sistemin satınalınması prosesi həyata keçirilib və tenderdə bir çox ölkələrdən 22 şirkət iştirak edib. Prosesin qalibi "Koreya Fond Birjası" elan olunub və ötən ilin fevralında bu şirkətdə Azərbaycan qiymətli kağızlar bazarının vahid ticarət, ticarətsonrası və nəzarət sisteminin yaradılması ilə bağlı layihə planı imzalanaraq işlərə start verilib.



Əldə olunan razılığa əsasən, Koreya Birjasının 40-a yaxın nümayəndə heyəti ötən ilin dekabrından Bakıda işçi səfərdədir.

"İstifadəyə verilən sistem funksionallığı, iş prinsipi, elektron interfeysi, yeni ticarət imkanları baxımından əvvəlkindən fərqlənir. Yeni sistem Azərbaycan fond bazarının inkişafına təkan verəcək yeni alətlərlə ticarət imkanı yaradır. Eyni zamanda, bazarın gələcək inkişaf perspektivlərini nəzərə alaraq, bazar iştirakçılarına dünyada bu sahədə tətbiq edilən qabaqcıl texnologiyalar əsasında yaradılmış təhlükəsiz və yüksək sürətli ticarət imkanları təqdim edir. İstifadə edilmiş qabaqcıl texnologiyalar sayəsində investisiya şirkətləri gələcəkdə müştərilər üçün bilavasitə ticarətdə iştirak imkanları – investor terminalları yarada biləcəklər. Bakı Fond Birjasının yeni ticarət sistemi Azərbaycan fond bazarının inkişafına təkan verəcək yeni alətlərin ticarətinə imkan yaradır", - deyə aparat rəhbəri vurğulayıb.

Hər iki ölkə arasında əməkdaşlıq potensialının çox böyük olduğunu deyən Koreya Respublikasının ölkəmizdəki səfiri Kim Çanq-gyu qiymətli kağızlar bazarının vahid ticarət, ticarətsonrası və nəzarət sisteminin istifadəyə verilməsinin gələcəkdə Azərbaycan və Koreya arasında informasiya texnologiyaları və biznes sektoru sahəsində əlaqələrin daha da inkişafına mühüm töhfə verəcəyini deyib.

"Azərbaycan regionda kapital bazarının inkişafı ilə bağlı mühüm tədbirlər həyata keçirən ən qabaqcıl ölkədir. Yeni sistemin istifadəyə verilməsi Azərbaycana yeni investisiyaların yatırılmasına şərait yaradacaq, həmçinin yerli şirkətlər də beynəlxalq kapital bazarına çıxış imkanı əldə edəcək. Biz Dünya Bankı olaraq Azərbaycan iqtisadiyyatının inkişafı üçün islahatların keçirilməsi, qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsinə töhfə verməyə hazırıq", - deyə Dünya Bankının Cənubi Qafqazda maliyyə və özəl sektor üzrə ölkə əlaqələndiricisi Anjela Prigojina qeyd edib.

Koreya Birjasının daimi nəzarət müfəttişi Yanq Sanq Kvon gələcəkdə də bu sahədə əməkdaşlığı davam etdirəcəklərini və biznes imkanlarının yaranmasına öz töhfələrini verəcəklərini vurğulayıb.

Tədbir çərçivəsində qiymətli kağızlar bazarının vahid ticarət, ticarətsonrası və nəzarət sisteminin qurulması ilə məşğul olan işçi qrup mükafatlandırılıb.

Rəsmi hissədən sonra Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Rüfət Aslanlı və Koreya Birjasının daimi nəzarət müfəttişi Yanq Sanq Kvonun iştirakı ilə yeni sistem istifadəyə verilib.

# Mərkəzi Bank uçot dərəcəsini 5 % səviyyəsində müəyyən edib




Azərbaycan Respublikasının Mərkəzi Bankı makroiqtisadi sabitliyin və dayanıqlığın təmin olunmasına yönəldilmiş tədbirləri davam etdirir.

Mərkəzi Bankdan Trend-ə verilən məlumata görə, bu məqsədlə elan edilən yeni məzənnə rejiminə uyğun əməliyyat çərçivəsinin tətbiqi və bununla valyuta bazarında vəziyyətin stabilləşməsinə nail olmaq istiqamətində zəruri tədbirlər görülür.

Mərkəzi Bank tərəfindən keçirilən son valyuta satışı hərraclarında tələbin təklifdən az olması, eləcə də manatın xarici valyutalara nəzərən məzənnəsinin bir qədər möhkəmlənməsi valyuta bazarında tarazlığın yaranması üzrə ilkin nəticələr kimi qiymətləndirilə bilər.

Tətbiq olunan məzənnə rejimi pul-valyuta bazarının inkişafı və iqtisadi subyektlər tərəfindən risk idarəetməsinin inkişafı ilə müşaiyət olunmaqdadır.

Valyuta bazarında vəziyyətin stabilləşməsi, banklar tərəfindən milli valyuta ilə depozitlərə görə daha cəlbedici faizlərin təklif olunması, eləcə də dövlət tərəfindən milli valyutada olan istiqrazların xarici valyutada istiqrazlarla müqayisədə daha yüksək gəlirliklə yerləşdirilməsi milli valyutanın yığım vasitəsi kimi daha geniş istifadəsinə müsbət təsir göstərməkdədir.

Milli valyutaya olan etimadı gücləndirmək, manat depozitlərinin artmasını təşviq etmək, eləcə də pul bazarında formalaşmış konyunkturaya uyğun olaraq pul siyasəti alətlərinin təkmilləşdirilməsinə şərait yaratmaq üçün Mərkəzi Bankın İdarə Heyəti 15 fevral 2016-cı il tarixindən uçot dərəcəsini 5%, likvidlik əməliyyatları üzrə faiz dəhlizinin aşağı həddini 2%, yuxarı həddini isə 10% səviyyəsində müəyyən etmək barədə qərar qəbul edilib.

Bu qərar həm də başlıca makroiqtisadi göstəricilərin proqnozuna və orta müddətli dövrdə dayanıqlı qiymət sabitliyinə nail olunması məqsədinə əsaslanmaqla qəbul edib.

Mərkəzi Bank bundan sonra da makroiqtisadi prosesləri və maliyyə bazarında vəziyyəti izləyəcək və zərurət yarandıqda mərhələlərlə pul siyasəti alətləri vasitəsilə çevik reaksiya verəcəkdir.

KİVDF

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# AZAD SAHİBKARLIQ YENİ ÇAĞIRIŞLAR VƏ MEYARLAR MÜSTƏVİSİNDƏ

**Son 12 il ərzində Azərbaycana 200 milyard dollardan artıq sərmayə cəlb olunub ki, bunun 100 milyardı Azərbaycan dövlətinin özünün sərmayəsidir. Bu həcmdə sərmayələrin yatırılması ölkəmizin iqtisadi və sosial tərəqqisində müstəsna rol oynamaqla yanaşı, qeyri-neft sektorunun yaranıb intişar tapmasına geniş yol açmışdır. Hazırda Azərbaycan bir çox transmilli layihələri uğurla gerçəkləşdirən bir ölkəyə çevrilib.**



Neftin dəyərinin hansı qiymətə düşməsindən asılı olmayaraq, Azərbaycan Şərq-Qərb, Şimal-Cənub nəqliyyat və enerji dəhlizinin mərkəzinə çevrilib. Ötən 10 il ərzində Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb, qeyri-neft sektorunun iqtisadiyyatda payı 70 faizə çatıb və bu sektorun sürətli inkişafı davam edir. Regionlarımız abadlaşıb, müasirləşib, infrastrukturu köklü şəkildə yeniləşib. Ən böyük uğurlarımızdan biri də yeni keyfiyyət standartlarına cavab verən sahibkarlıq subyektlərinin formalaşmasıdır. Doğrudur, bu sahədə problemlər mövcuddur. Lakin həmin problemlərin aradan qaldırılması istiqamətində ardıcıl və sistemli tədbirlər görülür.

Bir neçə rayonun real durumunu göstərməklə bəzi problemləri araşdırmağa çalışacağıq. Bəri başdan qeyd etmək lazımdır ki, regionlarda azad sahibkarlıqla bağlı mövcud problemlərin, demək olar ki, 95 faizi bir-biri ilə üst-üstə düşür.

Şimal bölgəsinin ən böyük rayonlarından biri olan Quba rayonuna nəzər yetirək. Rayonun gözəl təbiəti, münbit torpağı, əməksevər insanları, zəruri infrastrukturu vardır. Lakin respublikamızın digər rayonları kimi, Quba da, Xaçmaz da dövlət dotasiyası ilə yaşayır. Bu günlərdə həmin bölgədə səfərdə olan Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bunu dilə gətirərək demişdir: «Söhbət təkcə Qubadan, Xaçmazdan getmir. İndi mən bu bölgədə olduğum üçün bu rayonların adlarını çəkirəm. Bu gün Azərbaycan rayonlarının faktiki olaraq 90 faizi dövlətin dotasiyası hesabına yaşayır. Hər şey mərkəzdən gəlir. Nə vaxta qədər belə davam edə bilər? Quba rayonunun ümumi iqtisadi potensialının 50 faizi işə salınsa, bu rayonda bir nəfər də olsun işsiz olmaz». Haqlı fikirlərdir. Çünki dövlət dəstəyi göstərilir, güzəştli kreditlər verilir, lakin nəticə qaneedici deyil. Belə ki, son 10 il ərzində Quba rayonu üzrə fərdi təsərrüfatlara, sahibkarlıq subyektlərinə 40 milyon manatdan artıq vəsait ayrılıb. Bununla belə ötən illər ərzində rayonda yaradılan, xırda və orta bizneslə məşğul olan nümunəvi təsərrüfatlar azdır. Bu həcmdə maliyyə vəsaitləri verilməsinə rəğmən, münbit torpaqların bir qismi əkilməyib, meyvəçilikdə məhsuldarlıq azalıb, suvarma sistemləri, meliorasiya və irriqasiya işləri lazımi səviyyədə qurulmayıb. Ayrılan vəsaitlərin böyük qismi fərdi təsərrüfatların və həyətyanı sahələrin əkilib-becərilməsinə sərf olunub. Rayonların ayrı-ayrı məhsullar üzrə ixtisaslaşması prosesi ləng gedir. Hər bölgəyə xas olan ənənəvi məhsullar vardır ki, başqa bölgədə əkiləndə lazımi nəticəni vermir. Məsələn, Qubada yetişən alma Ağsuda yetişsə də, həmin keyfiyyəti verə bilməz. Həmçinin, Ağsuda, Göyçayda yetişən nar şimal bölgələrimizdə yetişə bilməz. Şəkinin taxılı, ipəyi, Abşeronun zəfəranı, zeytunu harada becərilsə də, həmin effekti verməyəcək. Ölkəmizdə antiinhisar tədbirlərinin start götürdüyü bir vaxtda Ağsuda böyük bir istixana kompleksi tikilir, cari ilin mart ayında istifadəyə veriləcək. Tikinti işlərinə 100 nəfər işçi cəlb olunub, kompleks işə düşdükdən sonra burada 30 nəfər işçi çalışacaq və 250-300 manat əmək haqqı alacaq. Cəmi 3 hektar ərazidə qurulan istixana kompleksində ildə 500 ton pomidor yetişdiriləcək. Gələcəkdə Şəmkir, Tovuz rayonları kimi Ağsu rayonunda da istixana təsərrüfatlarının geniş şəbəkəsi yaradılacaq. Həmçinin, Ağsuda taxıl və yazlıq bitkilərin istehsalında da digər rayonlara nisbətən yüksək məhsuldarlıq özünü göstərir. 2015-ci ildə hər hektardan orta hesabla 35 sentner taxıl götürülüb ki, bu da respublika üzrə orta göstəricidən xeyli çoxdur. Eyni zamanda, kartof, soğan, bostan bitkiləri, meyvə və üzümçülük sahələrində də məhsuldarlıq artıb. Cəlilabad rayonunda kütləvi halda kartof əkilib-becərilməyə, əsasən 1980-ci illərin axırlarından üzümçülük ləğv edildikdən sonra başlandı. Nəticədə, taxılçılıqla yanaşı, meyvəçilik və bostan bitkiləri də geniş yayıldı. Yığılan məhsullar Bakı və Sumqayıt şəhərlərinə göndərilirdi. Cəlilabadın əkinçilik üçün əlverişli olan münbit və bərəkətli torpağı vardır. Yol kənarlarında yüz cür nemət satılır: kartof, kələm, çiyələk, soğan, üzüm, qarğıdalı, qarpız, yemiş, noxud...

İl ərzində Cəlilabadda üç dəfə kartof məhsulu yetişdirilir. Erkən kartof – aprelin əvvəli, mayın birinci yarısı, faraş kartof – mayın sonu, iyunun əvvəli və payızlıq kartof. Təkcə rayonun Muğanlı kəndində 3 min hektar əkin sahəsində kartof becərilir. Kartofla bərabər, yuxarıda adı çəkilən məhsulların, demək olar ki, hamısı əkilib-becərilir. Cəlilabad kənd təsərrüfatı məhsullarının geniş çeşiddə istehsalını həyata keçirən ən böyük rayonlardan sayılır. Dolanışıqdan, maddi durumundan əhali giley-güzar etmir. Hər şeydən əvvəl, yaxşı güzəran ilin bol məhsulu ilə bağlıdır. Məhsul bol olduqda ailənin də ovqatı xoş olur, əhval-ruhiyyəsi yüksəlir. Lakin son illər satış sarıdan çətinliklər yaranıb, xaricə mal daşınmasının həcmi azalıb. Bu da qonşu ölkələrdə baş verən böhranlarla bağlıdır. Digər problemlər də var. Axı, bu qədər məhsul istehsal edən bir ölkəyə xaricdən kartof, soğan, meyvə gətirilməsi yolverilməz haldır. Elə ki, noyabr ayı başladı qonşu ölkələrdən – Türkiyədən, İrandan ölkəmizə adıçəkilən məhsullar daşınıb gətirilir.



Tədarük məntəqələri olmadığına görə, yığılan məhsulun bir hissəsi ya yerli, ya da Rusiya bazarlarında tələm-tələsik satılır. Təklif tələbi bir neçə dəfə üstələdiyinə görə, məhsulun böyük qismini satmaq mümkün olmur və nəticədə min tonlarla məhsul zay olub tullanır. Belə vəziyyətdə təsərrüfatçının yüksək mənfəət əldə etməsindən danışmaq yersizdir. Açığını demək lazımdır ki, bölgələrdə yaradılan soyuducu anbarların bir çoxu işləmir. Bunun müxtəlif səbəbləri var. Buna əsas səbəb kimi məhsulun daşınması və saxlanılmasına çəkilən izafi xərclərin böyük olması və digər texniki səbəblərin mövcudluğunu göstərmək olar. Məhz bu səbəbdən də Cəlilabadda selofan altında yetişdirilən erkən kartofun əkilib-becərilməsinə üstünlük verilir. Həmin məhsullar mövsümün qıt vaxtında yetişdiyinə görə tez və yaxşı qiymətə satılır. Faraş kartof əsasən Rusiya bazarlarına göndərilir. Burada da daşınma ilə bağlı bir sıra həllini gözləyən problemlər vardır ki, bu barədə gələcək yazılarımızda geniş söhbət açacağıq.

Digər bir problem özəlləşdirilən və icarəyə verilən torpaqlarla bağlıdır. Rəsmi məlumata görə, hazırda respublikamızda 450 min hektar istifadə olunmayan torpaq sahələri vardır. Həmin torpaqları əkib-becərməklə ildə 1,5 milyon ton taxıl istehsal etmək olar. Bu rəqəm heç də adi görünməsin. Bununla əhalinin 50 faizdən çoxunun taxıl məhsullarına olan tələbatını ödəmək olar. Tütünçülükdə, çayçılıqda, pambıqçılıqda da vəziyyət ürəkaçan deyil. Cənab prezidentin qarşıya qoyduğu vəzifələr sırasında istifadəsiz torpaqların əkin dövriyyəsinə buraxılması, hər bir rayonun xüsusiyyətləri nəzərə alınaraq «yol xəritəsi»nin tərtib edilməsi və sahibkarlıq subyektlərinin həmin torpaqlara cəlb olunması ön mövqedə dayanır.

2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda cənab prezident İlham Əliyev bir sıra iqtisadi islahatların aparılmasına ciddi zərurət yarandığını vurğulamışdır. Belə ki, yaxın zamanlarda ölkəmizdə sənaye və aqrar sektorun inkişafı ilə əlaqədar ixracyönlü məhsulların istehsalına daha çox diqqət yetiriləcək. Dövlət başçısının tapşırığına əsasən, regionlarda 150 layihənin reallaşdırılması üçün 1,5 milyard manat vəsait ayrılıb. Həmin vəsait hesabına bölgələrdə istehsal, emal və digər müəssisələrin yaradılması nəzərdə tutulur. İri fermer assosiasiyalarının və birjaların yaradılması, məhsul tədarükünün həmin strukturlar tərəfindən tənzimlənməsi, ilboyu ərzaq qıtlığının qarşısının alınması, məhsul itkisinə yol verilməməsi və məhsuldarlığın artırılması yolu ilə təsərrüfat subyektlərinin gəlirlərinin artırılması qarşıda duran ən vacib və təxirəsalınmaz vəzifələrdəndir.

Elə Quba rayonunu götürək. Məşhur Quba almasının şöhrətinin özünə qaytarılması üçün rayondakı emal müəssisələrinin qısa müddət ərzində bərpası həyata keçirilməlidir. Buradakı 3 emal müəssisəsinin yalnız biri fəaliyyət göstərir. Həmin müəssisə tam gücü ilə işləmir. Odur ki, istehsal olunan meyvələrin bir hissəsi ucuz qiymətə satılır, digər hissəsi zay olaraq atılır. Ən gəlirli sahələrdən biri Qubada xalçaçılığın inkişafı ilə bağlıdır. Burada fəaliyyət göstərən «Qədim Quba» xalçaçılıq müəssisəsi tam istehsal gücü ilə işləmir. Vaxtilə müəssisədə 200 nəfərdən artıq işçi çalışırdı. Amma toxunan xalçaların satışında yaranan problem işçilərin ixtisarına səbəb olub. Əldə toxunan bu xalçalar xalqımızın qiymətli maddi mədəniyyət nümunələri sayılır. Burada xalçaların satılmamasından söhbət gedə bilməz. Sadəcə olaraq hələ ki, bu unikal məhsulların öz alıcısını tapması üçün lazımi marketinq strukturu yaradılmayıb.

İqtisadi böhrandan çıxmaq üçün dövlət əlindən gələni edəcək. Lakin bununla iş bitmir. Cənab prezidentin də dediyi kimi, böhrandan çıxmaq üçün gərək bütün səylər birləşdirilsin, hamı ümumi məqsədlər naminə səfərbər olunsun.

Azərbaycan neft ixrac edən ölkə olduğu üçün qiymətlərin 4 dəfədən artıq düşməsi, həm Dövlət Neft Fondunun, həm də Mərkəzi Bankın gəlirlərinə ciddi təsir göstərib. Belə olan halda manevr imkanlarını artırmaq, bütün sahələrdə mövcud olan boşluqları axtarıb tapmaq, təşviq etmək və vaxt itirmədən onların aradan qaldırılması istiqamətində əməli tədbirlər görmək lazımdır.

Möhtəkirlik, işbazlıq kimi təsərrüfatçıların işinə əngəl törədən hallar aradan qaldırılmalı, istehsalçı ilə istehlakçı arasında sivil bazar münasibətləri yaradılmalıdır.

Azərbaycanda uzun illərdir həyata keçirilən uğurlu iqtisadi siyasətin davamı olaraq bundan sonra da qarşıya çıxan çətinliklər aradan qaldırılacaq, sosial-iqtisadi həyatın bütün sahələrində yüksək dinamika qorunub saxlanacaqdır.

*Zülfü İLYASOV,*
*«İqtisadiyyat» qəzetinin bölgə müxbiri*

# Крупнейшие слияния и поглощения 2015 ГОДА

Количество сделок на российском рынке слияний и поглощений (M&A) в 2015 году уменьшилось на 19 процентов к позапрошлогодним показателям. Всего было зафиксировано 504 сделки, свидетельствуют данные KPMG. Их объем в денежном выражении упал еще сильнее — на 29 процентов, составив 55,8 миллиарда долларов. При этом глобальный рынок M&A вопреки кризису продемонстрировал превосходный результат, побивший рекорд 2007 года в 4,6 триллиона долларов. По данным MarketWatch, общий объем сделок по слиянию и поглощению, объявленных в 2015 году по всему миру, превысил пять триллионов долларов. «Лента.ру» выбрала по пять крупнейших сделок M&A на российском и глобальном рынке.

**$160 миллиардов**
**Покупка производителя ботокса Allergan**




В ноябре 2015 года стало известно, что американский фармацевтический гигант Pfizer и зарегистрированный в Ирландии производитель ботокса Allergan намерены объединиться и создать крупнейшую в мире фармкомпанию. Это слияние назвали крупнейшим в фармацевтической отрасли и третьим по величине в истории M&A. Сумма сделки оценивалась примерно в 160 миллиардов долларов. Ее закрытие ожидается во второй половине 2016 года.

**$117 миллиардов**
**Слияние AB InBev и SABMiller**

В сентябре крупнейшая в мире международная пивоваренная компания AB InBev (российское подразделение концерна «САН ИнБев», выпускающее марки пива BUD, «Клинское», «Сибирская корона», Stella Artois, «Толстяк» и другие) запустила процесс слияния с конкурирующей SABMiller. Эксперты называют эту сделку крупнейшей за всю историю среди производителей напитков. Процесс слияния должен завершиться во второй половине 2016 года. Сумма сделки составит примерно 117,4 миллиарда долларов. Через четыре года эффект от синергии будет равен 1,4 миллиарда долларов ежегодно.

**$81 миллиард**
**Приобретение BG нефтегигантом Shell**

В апреле нефтегазовый гигант Shell договорился о покупке британской газовой компании BG Group. Акционеры BG получат за каждую акцию по 3,83 фунта стерлингов, а также 0,4454 акции Shell. Сумма сделки составляет 81,5 миллиарда долларов, после ее закрытия акционеры BG будут владеть 19 процентами акций Shell. Закрытие крупнейшей сделки в нефтегазовой сфере ожидается к середине февраля 2016 года.

**$67 миллиардов**
**Вторая по величине сделка в IT**

Американская корпорация Dell и фонд прямых инвестиций Silver Lake приняли решение купить крупнейшего




производителя систем хранения данных EMC. Сделка была названа второй по величине в технологическом секторе после слияния AOL и Time Warner в 2000 году (165 миллиардов долларов). Ее сумма составила примерно 67 миллиардов долларов. Для финансирования покупки Dell привлека кредиты в объеме 40 миллиардов долларов.

**$63 миллиарда**
**Пятый в мире производитель еды**

В марте американские производители продуктов H.J. Heinz Company и Kraft Foods Group подписали соглашение о слиянии. Сумма сделки составила 62,6 миллиарда долларов. Новая структура будет называться The Kraft Heinz Company и станет третьим крупнейшим производителем продуктов питания и напитков в Северной Америке и пятым в мире. Согласно прогнозу руководства, годовая выручка компании составит примерно 28 миллиардов долларов. The Kraft Heinz Company будет владеть восемью брендами, стоимость каждого из которых превышает миллиард долларов, и еще пятью брендами, которые оцениваются в 0,5-1 миллиард долларов. Процесс слияния завершится к 2017 году.

**$7 миллиардов**
**Продажа «Стройгазконсалтинга» Газпромбанку и UCP**

Газпромбанк и фонд United Capital Partners (UCP) Ильи Щербовича в апреле прошлого года приобрели на паритетной основе 100 процентов «Стройгазконсалтинга» (СГК), некогда одного из крупнейших подрядчиков «Газпрома». Продавцами выступили основатель компании Зияд Манасир и бизнесмен Руслан Байсаров.

Продажа собственниками строительной организации стала следствием конфликта Манасира с «Газпромом», произошедшего еще в октябре 2013 года. Предприниматель пожаловался в возглавляемую Игорем Сечиным президентскую комиссию по ТЭКу на газовую госмонополию, обвинив концерн в затягивании проектов и недофинансировании. В результате СГК лишился крупных контрактов от «Газпрома», составлявших основу его финансового благополучия. Манасир пытался выйти на рынок дорожного строительства, тем самым диверсифицировать бизнес. Но ситуация в компании все равно ухудшалась, в суды посыпались миллиардные иски от банков-кредиторов. В 2014 году в состав совладельцев холдинга вошел Руслан Байсаров, который к моменту продажи СГК довел свою долю до 74 процентов.

**$5,7 миллиарда**
**Консолидация Polyus Gold семьей Керимова**

Структуры, подконтрольные семье сенатора Сулеймана Керимова, в конце прошлого года консолидировали не-




многим менее 100 процентов акций Polyus Gold — головной структуры одного из крупнейших в России золотодобывающих холдингов. Керимов приобрел 37 процентов Polyus за 1,3 миллиарда долларов в 2009 году у Владимира Потанина. Позднее довел размер этого пакета до 40 процентов. В апреле 2015-го фонд Suleyman Kerimov Foundation перевел принадлежащие ему ценные бумаги Polyus Gold в собственность 20-летнего сына Сулеймана Керимова Саида. Через полгода, в ноябре, владельцы более 58 процентов Polyus согласились на оферту (предложение) подконтрольной Керимову компании Sacturino Limited о продаже ценных бумаг. Выкуп этого пакета производился исходя из оценки всей компании в девять миллиардов долларов. Большую часть средств на выкуп акций (5,4 миллиарда долларов) — Sacturino заняла в ВТБ.

**$2,4 миллиарда**
**Покупка «Роснефтью» доли НПЗ Essar**

«Роснефть» летом 2015 года договорилась о вхождении в уставный капитал нефтеперерабатывающего завода индийского холдинга Essar Oil в городе Вадинар западного штата Гуджарат. Стороны договорились о продаже до 49 процентов акций НПЗ, являющегося вторым по мощности в Индии. Этот контракт стал частью пакета соглашений российского нефтедобытчика с индийской компанией, предусматривающего также поставки около 100 миллионов тонн нефти в течение ближайших 10 лет.

Партнеры планируют более чем вдвое увеличить объемы переработки на заводе в Вадинаре: с нынешних 20 миллионов тонн в год до 45 миллионов тонн к 2020 году. Кроме того, в рамках сделки они договорились расширить индийскую сеть заправочных станций Essar с 1600 до 5000 в течение двух лет.

**$2 миллиарда**
**Обратный выкуп акций «Уралкалия»**




Крупнейший российский производитель калийных удобрений «Уралкалий» провел в 2015 году крупнейший в отрасли обратный выкуп с рынка своих акций (buyback), потратив на это более 2 миллиардов долларов. О готовности выкупить до 16 процентов собственных акций на 1,5 миллиарда долларов «Уралкалий» объявил в апреле. Таким образом менеджмент стремился поощрить владельцев ценных бумаг, которым компания не смогла заплатить дивиденды за 2014 год (холдинг получил чистый убыток за год в размере 33,3 миллиарда рублей). В рамках первого buyback «Уралкалий» приобрел 11,56 процента акций на 1,09 миллиарда долларов. Акции выкупались дочерней структурой «Уралкалия» Enterpro Services Ltd.

В августе совет директоров одобрил программу выкупа еще 14 процентов акций и глобальных депозитарных расписок (GDR) на общую сумму до 1,3 миллиарда долларов. К октябрю компания приобрела с рынка около 22 процентов уставного капитала, включая 12,5-процентную долю китайской Chengdong Investment Corporation (китайцы купили акции «Уралкалия» в 2013-м).

**$1,6 миллиарда**
**Покупка структурой Фридмана активов E.ON**

В декабре 2015 года немецкий концерн E.ON продал нефтяные и газовые активы в норвежском Северном море компании DEA Deutsche Erdoel AG, подконтрольной российскому миллиардеру Михаилу Фридману. Предметом сделки стала компания E.ON E&P Norge, которой принадлежат 43 лицензии на месторождения нефти и газа.

Этой сделке предшествовала эпохальная история с попыткой компании LetterOne Фридмана купить британские активы немецкой RWE. В марте LetterOne договорилась о покупке у RWE нефтегазового бизнеса ее дочерней




компании DEA за пять миллиардов евро. Поскольку DEA имеет структуры во многих европейских странах, сделка требовала многочисленных согласований. Резко против выступило правительство Великобритании. Там опасались, что LetterOne может попасть под международные санкции, что усложнит условия ведения бизнеса. Министерство энергетики Великобритании дало Фридману полгода на то, чтобы он избавился от всех своих британских активов, угрожая отозвать лицензии на добычу полезных ископаемых. В результате DEA Group продала все месторождения природного газа в британском секторе Северного моря швейцарской компании Ineos.

## Азербайджан является стратегическим союзником Грузии с точки зрения поставок газа - замминистра



Грузия пока не приняла решения о транспортировке газа из Ирана, поскольку стратегическим союзником страны с точки зрения поставок газа является Азербайджан, сказала заместитель министра энергетики Грузии Мариам Валишвили в эфире телеканала GDS, передает Грузия-Online.

"Если не удастся полностью освоить азербайджанский ресурс с точки зрения удовлетворения цены и объемов, естественно, Иран рассматривается как дополнительная возможность. Иранский газ в настоящее время стоит дороже, чем азербайджанский и российский. Следовательно, остается эта данность, однако динамика цен на природный газ меняется. Его цена в большей степени зависит от цен на нефть. Поэтому мы надеемся, что будет рациональней рассматривать коммерческие детали после того, как иранский природный газ станет международным продуктом", - отметила Валишвили.

По данным Национальной статистической службы Грузии, в 2015 году Азербайджан экспортировал в эту страну 1,51 миллиона тонн нефтяного эквивалента природного газа на сумму 314,3 миллиона долларов.

За год объемы грузинского импорта природного газа из Азербайджана в стоимостном выражении выросли на 9,4 процента, в количественном выражении - на 127,17 тысячи тонн нефтяного эквивалента, или на 9,2 процента.

Удельный вес газа в общем объеме импорта Грузии из Азербайджана составил почти 58 процентов. Азербайджан является основным поставщиком этого вида топлива в Грузию с удельным весом 74,9 процента от общего объема импорта этой категории. Остальная часть поставок газа пришлась на Россию и другие источники.

По данным отчета, за прошлый год Грузия в целом импортировала природный газ на сумму 419,44 миллиона долларов.

Азербайджан экспортирует в Грузию собственный газ по трубопроводу, соединяющему две страны в Газахском районе Азербайджана. Мощность прокачки газа по этому трубопроводу превышает 2,5 миллиарда кубометров в год.

## "Экономический пояс Шелкового пути" создаст большие возможности для развития Азербайджана

"Экономический пояс Шелкового пути" создаст большие возможности для развития Азербайджана, в особенности сфер сельского хозяйства, туризма, пищевой промышленности и машиностроения страны, сказал заместитель министра экономики Сахил Бабаев на Глобальном бизнес-форуме стран СНГ в Дубае, сообщает сайт форума.

"Участие Баку в "Экономическом поясе Шелкового пути" означает большой потенциал для инвесторов, так как новые железнодорожные линии, предусмотренные проектом, позволят упростить поставки товаров между Азербайджаном и Китаем в обоих направлениях", - сказал он.

Падение цен на нефть открывает перед Азербайджаном большие возможности в сферах усиления диверсификации экономики и привлечения зарубежных инвесторов в ненефтяной сектор, в особенности инвесторов из ОАЭ и стран-участниц Совета сотрудничества арабских государств Персидского залива, сказал замминистра.

"Несмотря на то, что низкие цены на нефть повлияли на доходы Азербайджана, мы видим хорошие возможности для того, чтобы привлечь инвестиции в другие сферы. Диверсификация ненефтяного сектора - наш основной приоритет в 2016 году. Это долгий процесс, но у нас уже есть определенные достижения в этой области. В настоящее время доля ненефтяного сектора в ВВП составляет 71 процент", - сказал Бабаев.

В сообщении также говорится, что Азербайджан принял ряд мер для улучшения бизнес-среды и привлечения инвестиций.

"В прошлом году Азербайджан представил более либеральное налоговое законодательство для малого и среднего бизнеса и облегчил его доступ к финансированию", - говорится в сообщении.

В сообщении отмечается, что облегчение визового режима упрощает доступ зарубежного бизнеса на азербайджанский рынок.

Глобальный форум стран СНГ проходит 17-18 февраля в рамках серии глобальных бизнес-форумов Торгово-промышленной палаты эмирата Дубай. Участники первого Глобального бизнес-форума стран СНГ рассмотрят взаимные коммерческие преимущества, вытекающие из создания новых экономических связей, что вызвано переориентацией торговых взаимоотношений в этом регионе, а также изучат возможные риски и пути их минимизации.

## Состоялся круглый стол PR специалистов

17 февраля 2016 года в отеле «Эксельсиор Отель & Спа Баку» состоялся круглый стол PR специалистов. На мероприятии приняли участие генеральный менеджер отеля «Эксельсиор Отель & Спа Баку» Турхан Пойраз, начальник отдела корпоративных коммуникаций ОАО "АтаХолдинг" Диляра Заманова, руководитель отдела коммуникаций и PR ОАО "Ата-Банк" Орудж Ибрагимов, начальник отдела связей с общественностью группы компаний "Veysəloğlu" Ильхам Мамедов, представитель Азербайджанской сети Глобального Соглашения Руслан Атакишиев, PR менеджер компании «Paşa Həyat Sığorta» Эльнур Гусейнгулиев, менеджер отдела связей с общественностью ОАО "Synergy Group" Айхан Насибли, сотрудник пресс-службы Министерства Здравоохранения Джавид Халилов, вице-президент Центра экономических исследований и обучения Радиль Фатуллаев, помощник официального представителя Глобального Соглашения по азербайджану Хаяля Мамедова и другие.

В ходе мероприятия участники рассказали об итогах свой профессиональной деятельности за 2015 год,



и поделились планами деятельности в 2016 году. Состоялся обмен мнениями по представляющим интерес сферам охватываемыми связями с общественностью. Также в ходе мероприятия был проведен обучающий тренинг по PR.

Генеральный менеджер отеля «Эксельсиор Отель & Спа Баку» Турхан Пойраз отметил: "Подобные круглые столы специалистов помогают наладить плодотворный обмен опытом, повысить профессиональный уровень, перенять практические знания, улучшить связи с общественностью".

## Цена нефтяной корзины ОПЕК понизилась на 4%

Цена нефтяной корзины ОПЕК 17 февраля составила 28,18 доллара за баррель, что на 1,17 доллара меньше показателя 16 февраля, сообщили Trend в четверг в картеле.

Стоимость нефтяной корзины ОПЕК определяется на основании цен на такие сорта нефти, как Saharan Blend (Алжир), Girassol (Ангола), Oriente (Эквадор), Minas (Индонезия), Iran Heavy (Иран), Basra Light (Ирак), Kuwait Export (Кувейт), Es Sider (Ливия), Bonny Light (Нигерия), Qatar Marine (Катар), Arab Light (Саудовская Аравия), Murban (ОАЭ) и Merey (Венесуэла).

Мировые цены на нефть в четверг демонстрируют положительную динамику. По состоянию на утро 18 февраля, стоимость апрельских фьючерсов на североморскую нефтяную смесь марки Brent росла на 1,39 процента - до 34,98 доллара за баррель. Цена мартовских фьючерсов на нефть марки WTI поднималась на 1,84 процента - до 31,21 доллара за баррель.

Рост цен обусловлен ожиданиями инвесторов по поводу стабилизации ситуации на рынке после заявлений министра нефти Ирана о готовности страны поддержать любые действия по восстановлению цен на нефть.



# Özəlləşdirmədən dövlət büdcəsinə 1 milyard manat daxil olub

"1996-cı ildən etibarən bir sıra nazirlik, dövlət komitəsi, konsern və şirkətlər ləğv edilib, onların tabeliyindəki müəssisə və obyektlər özəlləşdirməyə açıq elan olunub, bununla da özəlləşdirmənin daha sürətli və çevik formada aparılması üçün zəmin formalaşdırılıb". Bunu Əmlak Məsələləri Dövlət Komitəsinin sədr müavini Rüstəm Şahbazov deyib.



O qeyd edib ki, özəlləşdirmənin başlandığı dövrdən indiyədək xidmət, iaşə, ticarət və sair sahələrə aid 50 minə yaxın kiçik dövlət müəssisə və obyekti özəlləşdirilib:

"Bu proses zamanı orta və iri dövlət müəssisələrinin bazasında 1600-ə yaxın səhmdar cəmiyyəti yaradılaraq sonradan özəlləşdirilib".

R.Şahbazov bildirib ki, indiyədək müəssisə və obyektlərin özəlləşdirilməsindən dövlət büdcəsinə təxminən 1 milyard manat vəsait daxil olub:

"Bu da müvafiq qaydada ölkənin sosial-iqtisadi problemlərinin həllinə yönəldilib. Bundan əlavə, 100-ə yaxın dövlət müəssisə və obyekti investisiya müsabiqəli vasitəsilə özəlləşdirilib. Bu isə müəssisələrin və cəlb edilmiş investorların fəaliyyəti üçün əlverişli şərait yaradıb. İnvestisiya müsabiqələrinin qalibləri həmin müəssisələrdə istehsal fəaliyyətinin bərpası, iş yerlərinin açılması, yeni texnologiyaların və idarəetmə təcrübəsinin tətbiqinə 1 milyard manatdan çox investisiya qoyublar".

# Xarici dövlət borcu açıqlandı

1 yanvar 2016-cı il tarixinə Azərbaycanın xarici dövlət borcu 6,894.3 milyon ABŞ dolları (10,751.0 milyon manat), xarici dövlət borcunun ümumi daxili məhsula (ÜDM) olan nisbəti isə 19.8 faiz təşkil edib.

Maliyyə Nazirliyindən Trend-ə verilən məlumata görə, borca hökumətin birbaşa öhdəlikləri və dövlət zəmanəti ilə cəlb edilmiş kreditlər üzrə şərti öhdəliklər daxil edilib.

Borc vəsaitlərinin 58.6 faizi hesabat dövründən sonra 10 ilə qədər olan müddətdə, 32.9 faizi 10 ildən 20 ilə qədər olan müddətdə, 8.5 faizi isə 20 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır.

1 yanvar 2016-cı il tarixi vəziyyətinə xarici dövlət borcu üzrə alınan kreditlərin valyuta tərkibi aşağıdakı kimi olub: XBH (Beynəlxalq Valyuta Fondunun Xüsusi Borcalma Hüquqları) – 8.8 faiz, valyutalar üzrə isə ABŞ dolları ilə – 66.3 faiz, avro – 20.4 faiz, yapon yeni – 2.5 faiz, BƏƏ dirhəmi – 0.8 faiz, İslam dinarı – 0.6 faiz, Səudiyyə rialı – 0.4 faiz, Küveyt dinarı – 0.2 faiz.

Əsasən Dünya Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi və digər beynəlxalq maliyyə qurumlarından cəlb edilmiş vəsaitlər iqtisadi islahatlar proqramlarının dəstəklənməsi, infrastrukturun bərpası və yenidən qurulması, habelə yol tikintisi, regionların su təchizatının yaxşılaşdırılması, dəmir yolu nəqliyyatı xidmətlərinin təkmilləşdirilməsi, sənaye və s. sahələrə istifadə edilib.

# İlk kollektiv istehsalat təsərrüfatı yaradılıb

Salyan rayonunun Qarabağlı kəndində 1000 hektar sahəni əhatə edən ilk kollektiv istehsalat təsərrüfatı yaradılıb.

Rayin İcra Hakimiyyətindən verilən məlumata görə, "Qarabağlı" kollektiv istehsalat təsərrüfatının təsis yığıncağında mülkiyyətçilər, pay torpaq sahibləri iştirak edib.

Rayon İcra Hakimiyyətinin başçısı Tahir Kərimov bildirib ki, Belə təsərrüfatlarla istehsalın intensivliyi təmin olunmaqla, iqtisadi rentabellik və əhalinin məşğulluq səviyyəsi artacaq, yeni iş yerləri açılacaq. Qeyd olunub ki, belə təsərrüfatlar sərmayələr üçün cəlbedici olmaqla yanaşı, həm də ixrac yönümlü məhsul istehsalında daha böyük imkanlara malik olacaq.

Dövlətin kənd təsərrüfatına xüsusi qayğısından danışan mülkiyyətçilər Azər Ağayev, Rövşən Həsənov və başqaları bildirib ki, məhz bu amil onları yeni təsərrüfat subyekti yaratmağa ruhlandırıb. Elə bu səbəbdən də yeni "Qarabağlı Kollektiv İstehsalat Təsərrüfatı" təsis edilib. Yığıncaq iştirakçılarına məlumat verilib ki, beş təsisçinin təsis etdiyi təsərrüfat Qarabağlı, Kərimbəyli, Təzəkənd və Kolanı kəndlərini əhatə edir, 1000 hektar torpaq sahəsi var.

# ADIF bağlanmış bankların əmanətçilərinə kompensasiya ödəmək üçün kredit cəlb etməyə hazırdır

Azərbaycan Əmanətlərin Sığortalanması Fondu (ADIF) martın sonunadək fondun üzv banklarından 17 milyon manat cəlb edə bilər. Trend-in məlumatına görə, bunu ADIF-in icraçı direktoru Azad Cavadov mətbuat konfransında deyib.

Onun sözlərinə görə, ADIF-in kompensasiya ödəmək üçün vəsaiti çatacaq, lakin zərurət yaranarsa, fond Azərbaycan Mərkəzi Bankından kredit cəlb edəcək. Kredit fondun üzvlərindən cəlb edilən vəsaitlər hesabına qaytarılacaq.

A.Cavadov qeyd edib: "Birinci rübün sonunadək banklardan rüblük haqları alacağıq, həmin haqlar təqribən 7 milyon manat təşkil edəcək. Bundan başqa, qanunvericiliyə əsasən, Mərkəzi Bankdan kredit cəlb ediləndə banklardan 10 milyon manat həcmində əlavə vəsait toplaya bilərik".

O bildiri ki, hazırda ADIF-in vəsaitlərinin həcmi 106 milyon manat təşkil edir ("Bank of Azerbaijan", "Gəncəbank" və "United Credit Bank"a ödəniləcək kompensasiyalar nəzərə alınmadan).

Daha əvvəl verilən məlumata görə, "Bank of Azerbaijan"ın əmanətçilərinə kompensasiyaların həcmi 24,2 milyon manat, "Gəncəbank"ın 1,5 milyon manat, "United Credit Bank"ın 2,7 milyon manat, "Texnikabank"ın isə 123,2 milyon manat həcmində qiymətləndirilir.

İndiyədək fond "Bank of Azerbaijan" və "Gəncəbank"ın əmanətçilərinə ümumilikdə 20 milyon manatdan çox vəsait ödəyib.

# Banklar Mərkəzi Bankdan 50 milyon dollar alıb

Fevralın 17-də Azərbaycan Mərkəzi Bankının (AMB) növbəti valyuta hərracı keçirilib. AMB-dən Trend-ə verilən məlumata görə, Mərkəzi Bank tərəfindən 200 milyon ABŞ dolları məbləğində vəsait satışa çıxarılıb. Hərracda iştirak edən 14 bank tərəfindən məcmu tələb 49,990 milyon ABŞ dolları təşkil etdiyindən, sifarişlər 100 faiz təmin olunub.

# Avtomobil idxalı kəskin azalıb

2016-ci ilin Yanvar ayında Azərbaycana cəmi 437 ədəd nəqliyyat vasitəsi, o cümlədən 401 ədəd minik avtomobili idxal olunmuşdur.

"Marja"nın məlumatına görə, bu barədə Dövlət Gömrük Komitəsinin hesabatında deyilir.

Beləliklə, ötən ilin Yanvar ayı ilə müqayisədə avtomobil idxalı 9,3 dəfə azalmışdır.

2016-ci ilin Yanvar ayında 5 ədəd sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitələri (avtobuslar), 401 ədəd minik avtomobilləri və digər motorlu nəqliyyat vasitələri, 26 ədəd yük daşımaq üçün motorlu nəqliyyat vasitələri və 5 ədəd xüsusi təyinatlı motorlu nəqliyyat vasitələri idxal olunmuşdur.

Rəqəmlər əhalinin avtomobil almadığını, rəsmi distribyutor və dilerlərin də satışlarının dəfələrlə azaldığından çətin vəziyyətdə olduqlarını göstərir.

# AtaBank ötən ili 1,4 milyon manat xalis mənfəətlə başa vurmuşdur




Bankdan verilən məlumata görə, 31.12.2015-ci il tarixinə "AtaBank" ASC-nin cəmi aktivləri 607,2 milyon manat təşkil etmişdir ki, bu da 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,0% artım deməkdir. Bankın 2015-ci ilin sonuna kredit portfeli 530,4 milyon manat, cari hesablar da daxil olmaqla öhdəliklər 534,0 milyon manat, o cümlədən müddətli əmanət portfeli 443,5 milyon manat, fiziki şəxslərin müddətli əmanətləri 260,8 milyon manat, məcmu kapitalı isə 53,7 milyon manat olmuşdur. Həmçinin, Bank ötən ili 1,4 milyon manat xalis mənfəətlə başa vurmuşdur.

# Fond bazarında daha bir investisiya şirkəti yaradılıb

Azərbaycanda qiymətli kağızlar bazarının peşəkar iştirakçısı "Xalq Kapital" MMC özünün "Xalq Kapital Investisiya Şirkəti" MMC-yə çevrildiyini elan edib. Bu barədə Trend "Vergilər" qəzetinə istinadən məlumat verir.

"Xalq Kapital Investisiya Şirkəti"ndən Trend-ə deyiblər ki, hazırda investisiya xidmətlərinin göstərilməsi ilə bağlı hazırlıq gedir: "İlkin mərhələdə iki fəaliyyət növünü həyata keçirməyi planlaşdırırıq: müştərilərdən sifarişlərin qəbulu və onların reallaşdırılması, eləcə də qiymətli kağızların yerləşdirilməsi və anderraytinq üzrə fəaliyyət. Yaxın vaxtlarda müvafiq lisenziyaların alınması üçün müraciət edəcəyik".

# "PAŞA Həyat" - 5 il: Liderliyə doğru

Azərbaycanın həyat sığortası bazarının lideri olan "PAŞA Həyat Sığorta" şirkəti fəaliyyətə başlamasının 5 illiyini qeyd edib.

Şirkətin ictimaiyyətlə əlaqələr xidmətindən verilən məlumata görə, şirkət 5 il əvvəl - 14 fevral 2011-ci il tarixində Maliyyə Nazirliyinin müvafiq lisenziyası əsasında fəaliyyətə başlayıb. Fəaliyyətə başladığı dövrdən "PAŞA Həyat" Azərbaycan iqtisadiyyatına, o cümlədən ölkənin sığortası bazarının inkişafına öz mühüm töhfəsini verərək Azərbaycanın ən aparıcı həyat sığortası şirkəti statusuna nail olub.

Fəaliyyətinin 5 ili ərzində düzgün və uğurlu strategiyanın tətbiq edilməsi nəticəsində "PAŞA Həyat" Azərbaycan sığorta bazarının güclü maliyyə dayanıqlığı olan, həmçinin göstərdiyi yüksək sığorta xidmətlərinə görə müştəri məmnuniyyəti qazanan, yüksək inkişaf meyillərini daim davam etdirən, eləcə də ictimaiyyət arasında ən etibarlı şirkət statusu qazanaraq korporativ dəyərlərə malik bir maliyyə qurumu imicini qazanıb.

Əsas maliyyə göstəricilərinə gəldikdə isə, qeyd etmək lazımdır ki 5 illik fəaliyyəti dövründə şirkət nizamnamə kapitalını 5,75 dəfə artıraraq 40,250 mln. manata, aktivlərinin həcmini isə 150 mln. manata çatdırıb. Xüsusilə qeyd olunmalıdır ki, aktivlərinin həcminə görə "PAŞA Həyat" Azərbaycanın ümumi sığorta bazarının ən iri sığorta şirkəti hesab olunur. Bununla yanaşı, şirkət ötən ildə həyat sığortası məhsulları üzrə toplanan yığımların həcminə görə (54,527 mln. manat) ölkədə fəaliyyət göstərən sığorta sirkətləri sırasında ikinci yerdə qərarlaşıb.

Məhz bu inkişafın nəticəsi olaraq, "PAŞA Həyat" kapital və müxtəlif biznesmaliyyə göstəricilərinə görə Azərbaycanın həyat sığortası bazarının mülaq lider şirkətidir.

Fəaliyyəti tarixində "PAŞA Həyat" yalnız maliyyə sahəsindəki uğurları ilə deyil, həmçinin müasir tələblərindən irəli gələrək, cəmiyyət üçün mühüm əhəmiyyət daşıyan tarixi-mədəni irsin qorunması, idmanın inkişafı və s. bir çox maraqlı sosial layihələri ilə də gündəmdədir.

Hazırda "PAŞA Həyat" inkişafını yüksələn xətlə davam etdirir. Şirkət müştərilərə müxtəlif həyat sığortası məhsulları, o cümlədən "həyatın müddətli sığortası", "istehsalatda bədbəxt hadisələrdən icbari sığorta", "yığım tərkibli yaşam sığortası", "sağalmaz xəstəliklərdən sığorta" və digər könüllü həyat sığortası məhsulları təklif edir.

# Dünya Bankı: Azərbaycan regionda maliyyə sahəsində islahatlar üzrə liderlik edir

Azərbaycan regionda maliyyə sahəsində belə ən böyük islahatlar aparan yeganə ölkədir. Trend-in məlumatına görə, bunu Dünya Bankının Cənubi Qafqazda Maliyyə və Özəl Sektor üzrə qabaqcıl eksperti Anjela Priqojina Azərbaycanın qiymətli kağızlar bazarında ticarət, ticarətsonrası və nəzarət sisteminin işə salınması mərasimində deyib.

Onun sözlərinə görə, Azərbaycan olduqca qısa müddət ərzində kapital bazarının inkişafı üçün çox böyük islahatlar keçirməyi bacardı: "Bu müddət ərzində hüquqi çərçivələrin hazırlanmasından bu sistemin istifadəyə verilməsinədək çox şey edilib". Ekspert qeyd edib ki, kapital bazarının inkişafı Azərbaycanın maliyyə sektorunu yeni investisiyalar, o cümlədən xarici investisiyalar üçün açacaq: "Bundan başqa, Azərbaycan şirkətləri beynəlxalq kapital bazarlarına çıxış əldə edəcəklər". A. Priqojina əlavə edib ki, Dünya Bankı maliyyə sektorunda islahatlar aparılmasında Azərbaycana dəstək verməyə davam edəcək.

# Adsız və əvvəlcədən ödənilən "ALBUKART" təqdim olundu




Azərbaycanın İlk Mobil Operatoru və aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti və Azərbaycanda pərakəndə bank xidmətləri bazarının liderlərindən biri olan Unibank yeni eksklüziv ALBUKART adsız debet kartının istifadəyə verildiyini böyük məmnuniyyətlə elan edib.

Bu yeni kartın istifadəyə verilməsində məqsəd hansı mobil operatorun abunəçisi olmalarından asılı olmayaraq, müştərilərə nadir fürsətlərdən və bonus proqramlarından faydalanmaq imkanı yaratmaqdır.

Eyni zamanda, bu, müxtəlif satış nöqtələrində dərhal əldə oluna bilən, sözün həqiqi mənasında, ilk anonim plastik kartdır. Bakcell şirkətinin təklif etdiyi bonuslardan faydalanmaq üçün ALBUKART yalnız Bakcell nömrəsinə qoşulmalıdır.

"Azərbaycanda ilk dəfə olaraq bu təklifi irəli sürməkdən məmnunluq duyuruq. ALBUKART bizim dəyərli müştərilərimiz üçün saysız-hesabsız imkanlar yaradacaq və öz vaxtlarına və pullarına qənaət etməkdə onlara kömək edəcək. İnanırıq ki, abunəçilərimiz "Bakcell"in Unibank və Ulduzum tərəfdaşları ilə əməkdaşlığının nəticələrindən faydalana biləcəklər. Çünki tərəfdaşlarımızla birlikdə bizim bir əsas məqsədimiz var – abunəçilərimizin həyatını daha da asanlaşdırmaq və onlar üçün daha sərfəli şərtlər təmin etmək", - deyə Bakcell şirkətinin baş icraçı direktoru cənab Riçard Şirer bildirib.

Gündəlik xərclər üçün nəzərdə tutulan bu kart müştərilərə öz balanslarını artırmağa, mağazalarda ödəniş etməyə, istənilən yerdə istifadə edərkən öz mobil nömrəsinə bonus dəqiqələr qazanmağa, onlayn ödənişlər həyata keçirməyə və onu adi plastik kart kimi istifadə etməyə imkan verəcək. Bununla yanaşı, istifadəçilər "Unibank"ın istənilən filialında və real zaman rejimində işləyən "cash-in" tipli bankomatların, eləcə də bütün ölkə ərazisində işləyən Unibank tərəfdaşlarının ödəmə terminalları vasitəsilə kartın balansına vəsait yükləyə biləcəklər.

"Müştərilərin gözləntilərini təmin etməklə, Unibank müştəri təcrübəsini daha da yaxşılaşdırmaq üçün daim yeni texnoloji yollar axtarır. Yüksək xidmət keyfiyyəti və müştərilərimizin artan tələbatları üçün geniş çeşidli məhsulların təmin olunması bankımızın fəaliyyətində ən yüksək əhəmiyyət kəsb edən amillərdir. Böyük məmnuniyyətlə deyə bilərəm ki, ALBUKART ölkəmizin kart biznesi tarixində yeni bir fəsildir. Bu yeni fəsli Bakcell ilə birgə tərəfdaşlıq çərçivəsində açmağımıza çox şadam. ALBUKART ölkəmizdə bankçılıq və telekommunikasiya sahələrində mövcud olan ən qabaqcıl bilik və təcrübələri birləşdirən bir məhsul kimi müştərilərimiz üçün uğurlu olacaq", - deyə "Unibank"ın baş icraçı direktoru cənab Xalid Əhədov bildirib.



Müştərilər "ALBUKART"ı "Bakcell"in istənilən Müştəri Xidməti mərkəzindən və ya "Unibank"ın filiallarından şəxsiyyət vəsiqələrini təqdim etmədən əldə edə bilərlər.

Bakcell abunəçiləri "ALBUKART"dan ilk dəfə istifadə etdikləri zaman şəbəkədaxili zənglər üçün 10 dəqiqə pulsuz danışıq hədiyyə alırlar. Müştərilər öz kartlarından hər dəfə 10 AZN məbləğində xərclədikdə isə 5 dəqiqə pulsuz danışıq imkanı qazanırlar. Bonus dəqiqələrini almaq üçün qazanılan dəqiqələrin kodunu cavab SMS-i olaraq göndərmək lazımdır.

Yeni məhsul gündəlik xırda - istənilən ödənişlərdə istifadə etmək üçün nəzərdə tutulmuş, asan əldə olunan pulsuz adsız kartdır.

Müştərilər Bakcell və Unibank tərəfindən təqdim olunan müxtəlif xidmət və təkliflərdən faydalana biləcəklər: ALBUKART vasitəsilə ödəniş edərkən Ulduzum kodunu Ulduzum tərəfdaşlarına təqdim etmədən avtomatik olaraq Ulduzum endirimləri, habelə standart kredit və debet kartları üçün Unibank tərəfindən təklif olunan sərfəli güzəştlər qazanacaq, bank tərəfindən keçirilən müxtəlif kampaniyalarda iştirak və karta yüklənmiş məbləğlərə hesablanan 6% illik depozit faizi qazanmaq imkanı əldə edəcəklər.

Kartı aktivləşdirmək üçün istənilən bankomatda kartın PIN kodunu daxil etməli və ödəmə terminalından kartın balansına vəsait yükləmək lazımdır.

Hər bir ALBUKART sahibi "Unibank"ın təmin etdiyi bir neçə üstünlüklərdən faydalana bilər. Onlar "Unibank"ın VISA Gold və MasterCard Gold debet kartlarını 70%, VISA Platinum və MasterCard Platinum debet kartlarını isə 50% endirimlə əldə etmək, eləcə də qiymətli hədiyyə və mükafatlar oynanılan lotereyalarda iştirak etmək fürsəti qazanırlar.

# Ən təhlükəsiz “İnternet Bankinq” xidmətini təklif edən banklardan biri AGBank oldu

İnformasiya texnologiyalarının təhlükəsizliyini təyin və təmin edən High-Tech Bridge (https://www.htbridge.com/company/) və Qualys (https://www.ssllabs.com/index.html) beynəlxalq İT araşdırma şirkətləri bu sahədə bir sıra araşdırmalar aparıb. Nəticə olaraq adı çəkilən şirkətlərin internet səhifəsində istənilən bankın “İnternet Bankinq” xidmətinin təhlükəsizlik göstəricisini müəyyən edən pəncərə yaradılıb. İT üzrə ixtisaslaşan “Defcon” təşkilatının Azərbaycandakı nümayəndəsi isə bu pəncərə əsasında öz rəsmi saytında yerli 14 bankın internet üzərindən edilən xidmətlərin təhlükəsizlik reytinqini dərc edib (Reytinq). Beləliklə, Azərbaycanda fəaliyyət göstərən 14 bank arasında AGBank “İnternet Bankinq” xidmətinin təhlükəsizliyinə görə A+ dərəcəsinə layiq görülmüşdür.




Təhlükəsizliyi öndə tutan AGBank, bu sahədə ən müasir və güvənli “Vasco Token” qurğusunu tətbiq edib. Birdəfəlik şifrələri təsdiqləyən bu qurğu növbəti prinsip ilə çalışır: Siz dəyişməyən istifadəçi adını və şifrəni uyğun pəncərələrə qeyd edirsiniz. Ekranda görünən digər “Digipass” adlı pəncərəyə isə yeni şifrəni yazırsınız. Sistemə hər dəfə daxil olarkən yenilədiyiniz bu şifrə əməliyyatların təhlükəsiz şəkildə aparılmasını təmin edir.

AGBank-ın onlayn xidmətlər sırasına əlavə etdiyi yeniliklərdən biri də «Virtual Vasco Token» sisteminin tətbiqidir. Sistemi aktivləşdirmək üçün mobil telefonunuza xüsusi proqram təminatını yükləmək kifayətdir. Birdəfəlik şifrəni təsdiq edən bu sistem sayəsində keçirdiyiniz bank əməliyyatlarının tam təhlükəsizliyi təmin olunur və əlavə elektron cihazı daşımaq məcburiyyətindən də azad olursunuz.

# Konsolidasiya prosesinə xitam verilib

Bununla belə, çoxillik fəaliyyəti nəticəsində əldə etdiyi nailiyyətləri yeni formada yaşatmaq, dəyərli müştərilərinə qabaqcıl standartlara uyğun xidmətin davamlı olaraq göstərilməsini və bankın illər ərzindəv formalaşan yüksək peşəkarlıq ənənələrinə sadiq işçi heyətinin bank xidmətləri bazarında fəaliyyətinin səmərəliliyini daha da artırmaq məqsədilə “AGBank” ASC, digər bir yerli bankla müvafiq məsləhətləşmələr aparmışdır.

Belə danışıqlar nəticəsində ölkənin aparıcı banklarından olan “Bank Standard” KB ilə ilkin razılaşma əldə olunmuş və bu barədə bankların səlahiyyətli nümayəndələri tərəfindən 2016-cı ilin 11 fevral tarixində Niyyət protokolu imzalamışdır

Razılaşmaya əsasən bankların nümayəndələrindən ibarət işçi qurupu “AGBank” ASC-nin OSC “Bank Standard” KB-a qoşulması layihəsinin gercəkləşdirilməsi istiqamətində birgə işlər apacaqdır.

## Gənc tədqiqatçının tribunası

# Qısa və uzunmüddətli dövrdə iqtisadiyyatda baş verən dəyişmələr

*(əvvəli ötən sayımızda)*

Dünya bazarı ilə əlaqəli olan ölkə iqtisadiyyatına da qeyd edilən proseslər təsirsiz ötüşməyib və ötüşə də bilməz. Bəs, çətin vəziyyətdən necə çıxa bilərik?

Yüksək inflyasiya aşağı işsizlik, yoxsa aşağı inflyasiya yüksək işsizlik? İki seçim qarşısındayıq. Ötən ilin müvafiq dövrü ilə müqayisədə pul bazası təqribən 2 dəfə azalıb. Bu da son nəticədə alıcılıq qabiliyyətinin azalması ilə nəticələnir. Pul bazası azalır, bank kreditlərinin həcmi azaldığı üçün pul yaranma əmsalı azalır. Bütün bunlar isə ölkənin hazırkı durumunun pisləşməsinə birmənalı olaraq təsir edir. Bankların kredit portfeli bu və ya digər kredit növlərini özündə cəmləşdirir: biznes kreditləri, ipoteka, avtomobil, istehlak kreditləri və s. Biznes kreditlərini alan sahibkarların istehlakçılar tərəfindən alıcılıq qabiliyyətinin azalması səbəbindən gəlirləri azalır. Yəni, artıq sahibkar krediti ödəmək qabiliyyətini itirir. Yüksək işsizlik səbəbindən gəlirləri azaldığı və ya ixtisar edildiyi üçün krediti qaytarmaq qabiliyyətini itirənlərin sayı artır. Əsas gəlir mənbəyi kreditlər olan, öz gəlirlərinin formalaşmasında diversifikasiyaya getməyən kommersiya banklarımızın vəziyyəti günbəgün gərginləşir və bağlanmaq təhlükəsi ilə üzbəüz qalır. Buna misal kimi, artıq bir neçə bank filialının faktiki olaraq bağlandığını göstərmək olar. Bu da işsizlərin sayının daha da artmasına səbəb olur. Bankların girov qoyulan daşınar və ya daşınmaz əmlakları ödənilməyən məbləğlərin əvəzinə müsadirə etməsinə baxmayaraq, onları reallaşdırmaqda xeyli çətinliklərlə üzləşir. Çünki alıcılıq qabiliyyəti aşağı olduğundan bazarda təklif tələbi kifayət qədər çox üstələyir.



Daşınmaz əmlakın qiymətinin aşağı olmasının bir sıra obyektiv səbəbləri vardır. Ən birinci səbəb alıcılıq qabiliyyətinin aşağı düşməsi və bazarda təklifin tələbi üstələməsidir, həm də çox aşağı olan alıcılıq qabiliyyəti (başqa sözlə əhalidə sərbəst pul vəsaitlərinin olmaması). Bəs, alıcılıq qabiliyyəti niyə aşağı düşür? Hər bir fərd ilk növbədə aldığı əmək haqqını zəruri qida məhsullarına sərf edir. Artıq qalan vəsaitləri isə yığaraq bu və ya digər alışları həyata keçirir. Artan qiymətlər, bağlanan iş yerləri istehlakçılarda əlavə vəsaitlərin qalmasına imkan vermir. Digər tərəfdən isə bank kreditləri ilə alınan daşınmaz əmlakın ödənişləri edilmədiyi üçün həmin daşınmaz əmlaklar sonradan auksionda satılması üçün müsadirə edilir. Aşağı alıcılıq qabiliyyəti səbəbindən auksiona çıxarılan əmlakları uzun müddət reallaşdırmaqda çətinlik çəkilir və yaxud həqiqi dəyərindən aşağı reallaşdırılır.

İndi isə ikinci variantı nəzərdən keçirək. Dövriyyədə olan pul kütləsi artırılır, canlanma baş verir. Yeni iş yerləri açılır, bankların pul yaratma qabiliyyəti sürətlənir. Alıcılıq qabiliyyəti yüksəldiyi üçün pulun dövriyyə sürəti də artır. P-Ə-P formulası daha sürətlə işləyir. İstehsalın canlandırılması əlavə iş yerlərinin açılmasına, bazarda məhsul bolluğunun yaranmasına səbəb olur.

Mərkəzi Bank uçot dərəcəsini, Əmanətlərin Sığortalanması Fondu isə sığortalanmalı əmanətlər üzrə faiz dərəcəsini aşağı salmalı, dövlət xərcləri, pul bazası, alıcılıq qabiliyyəti artırılmalı və bazar canlandırılmalıdır. Düzdür, bu hal qısamüddətli dövrdə inflyasiyanın yüksəlməsinə səbəb olacaq, amma unutmaq olmaz ki, həm də işsizlik səviyyəsi aşağı düşəcək. Burada əsas problem odur ki, uzunmüddətli dövrdə inflyasiya səviyyəsi yüksək olaraq qalacaq, amma işsizlik öz təbii səviyyəsini saxlayacaq. Uzunmüddətli dövrdə əsas problem gələcəkdə yüksək inflyasiyanın aşağı salınması prosesi olacaqdır ki, bunun da bir neçə mümkün həll variantı vardır. Bu böhrandan yalnız ekspansionist, yəni genişləndirici monetar siyasət vasitəsi ilə çıxmaq mümkündür. Və dünya ölkələrinin təcrübəsi də bu həll qaydasını məqbul sayır.

Böhran iqtisadiyyatın ayrılmaz bir hissəsidir. Neftdən gələn gəlirlər manatın dəyərini illər ərzində durmadan artırdı, enən qiymət isə manata təsirsiz qalmadı. Məhsulların çox hissəsi idxal edildiyi üçün və manatın dəyər itirməsi nəticəsində məhsulların dəyərinin artmasına səbəb oldu. Əhalinin gəlirləri dəyişmədiyi halda xərcləri artdı. Bu şərait isə özünü əmanətlərin həcmində göstərdi ki, bu da əmanətlərin həcminin azalmasına səbəb oldu. Əmanətlərin həcminin azalması isə investisiyaların və inkişafın azalması ilə nəticələnir. Büdcənin gəlirlərinin böyük hissəsi neft fondundan transfer olduğuna görə neftin qiymətinin azalması büdcənin gəlirlərinin azalmasına səbəb oldu. Azalan gəlirlərin vergi hesabına artırılması isə yanlış bir addımdır.

Ölkənin valyutasının məzənnəsini xarici valyuta mübadilə bazarında tarazlaşdıran tələb və təklif qiyməti hansıdır? Cavab, real valyuta məzənnəsidir. Real valyuta məzənnəsi xalis ixracatı müəyyən edən əsas amildir. Belə ki, real valyuta məzənnəsinin qalxması xarici valyuta mübadilə bazarında tələb olunan manatın həcmini azaldır. Xarici valyutaya dəyişdiriləcək manatın təklifi isə xalis kapital axınından asılıdır. Qeyd etmək lazımdır ki, xalis kapital axını real valyuta məzənnəsindən asılı deyil. Bunu sadə bir misalla izah edim. Ölkəmizin şərti ixracı 100 dollar, idxalı isə 50 dollar olmuşdur. Yuxarıda qeyd etmişəm ki, manata tələb xalis ixracdan irəli gəlir. Xalis ixrac burada göründüyü kimi +50 təşkil edəcək. O cümlədən, manata təklif isə xalis kapital axınından irəli gəlir. Ölkədən xalis kapital axını 200 dollar, ölkəyə kapital axını isə 100 dollar təşkil etmişdir. Xalis kapital axını +100 dollar təşkil edəcək. Başqa sözlə, əgər manatımızı güclü etmək istəyiriksə, ixracın payını artırmaq lazımdır. Həm də məsələnin ikinci tərəfi kimi ölkədən kapital axınının qarşısını almaq, ölkəyə investisiya cəlb edilməsini təmin etmək lazımdır. Bu qaydalara əməl edilərsə, manat əvvəlki vəziyyətini yenidən bərpa edə bilər.

Həmçinin, qeyd etmək lazımdır ki, bir sıra zəruri istehlak məhsulları və ya əvəzedicisi olmayan lazımi əmtəələr var ki, həmin məhsulların qiymətlərindəki süni artımlara belə çətin vəziyyətlərdə qətiyyən yol vermək olmaz. İqtisadiy-yatda tələb və təklif qanunu, tələb və təklifin elastiklik qanunu var. Tələbin qiymətə görə elastikliyi tələbin həcminin əmtəənin qiymətinin dəyişməsinə olan reaksiyasını müəyyən edir. Əgər qiymət dəyişdikdə tələbin həcmi əhəmiyyətli dərəcədə dəyişərsə, əmtəəyə olan tələb elastik olur. Əksinə, qiymət dəyişdikdə tələbin həcmi nəzərə çarpacaq həcmdə dəyişməzsə, tələb qeyri-elastik olar. Bir-birinə yaxın olan, yəni əvəzedici əmtəələr daha elastik tələbə malik olurlar, çünki istehlakçılar heç bir çətinlik çəkmədən bir məhsulun yerinə digərindən istifadə edə bilirlər. Bundan başqa, qeyd etmək lazımdır ki, ən zəruri məhsullara olan tələb aşağı elastikliklə xarakterizə edilir. Sadə dildə desək, məsələn, çörəyin qiyməti necə dəyişsə, ona tələb çox da dəyişməyəcək, həmçinin də yumurtanın. Buna görə də unun, çörəyin, yumurtanın qiymətinin tənzimlənməsi zəruri və vacibdir. Bu siyahı (ən zəruri məhsulların siyahısı) müəyyən edilməli və qiymətlərin aşağı salınması istiqamətində işlər görülməlidir. Burada qiymətlərin aşağı salınması deyərkən əsassız qaydada artırılan qiymətlər nəzərdə tutulur.

Digər bir tərəfdən dövlət kommersiya banklarının xilasında yaxından iştirak etməlidir. Bankların iflası ölkə maliyyəsinin tamamilə sıradan çıxmasına səbəb ola bilər. Buna görə də bankların iflasının və zərərlə işləməsinin qarşısını almaq məqsədi ilə tədbirlər planı işlənib hazırlanmalıdır. Burada əsas məsələ kommersiya banklarının öz gəlirlərinin formalaşdırılmasında diversifikasiyaya getməmələridir. Və kreditlərin ödənilməməsi kommersiya banklarının müflis olmasına gətirib çıxara bilər. Buna görə də dövlət kommersiya banklarına bu prosesdə yaxından kömək etməlidir.

*Xəyal İsmayılov,*
*9 saylı ƏVİ dövlət vergi müfəttişi*



# Çillələr



Mərasim sistemində ilin qış fəslinin bölgülərinə Çillə deyilir. Çillə əslində, “cehl” sözündəndir və 40 rəqəmini bildirir. Əski təsəvvürlərdə bu dövr qışın ən soyuq vaxtına təsadüf etdiyindən o, həm də çətinlik, ağırlıq dövrü kimi başa düşülür. Əbəs yerə demirlər ki, adamlar ağır dərd-bəla ilə üzləşdikdə, xəstələndikdə bunlardan xilas olmaq üçün xüsusi ayinlər icra edirlər, elə bu da “çillə kəsmək” adlanır. Folklorşünas alimlərimizin araşdırmalarına görə, Novruza hazırlıq yeni təqvimlə dekabrın 21/22-də başlayır və üç mərhələdə bayram davam etdirilir. Birinci mərhələ Böyük Çillə ilə Kiçik Çillə arası (21/22 dekabr -1 fevral), ikinci mərhələ Kiçik Çillənin davam etdiyi müddət (1-20 fevral), üçüncü mərhələ isə dörd həftəlik Axır çərşənbələri əhatə edən Boz aydır. Bundan sonra isə Novruz gəlir.

Novruza doxsan gün qalmış, yəni qışın - Böyük Çillənin girməsi ilə bağlı xalq arasında Çillə şənlikləri keçirilir. Böyük Çillə 40 günü əhatə edir. Onun ilk gecəsi “şəbi-yelda” adlanır. Qış fəslinin ən uzun sürən Böyük Çilləsi öz qarına-tufanına, soyuq və dondurucu şaxtasına görə el arasında “qaraqış” da adlanır. Amma adamlar heç bu “qaraqış”dan da çəkinməyib öz işlərini görürlər. Ömrünü, gününü torpağa bağlayan əkinçi torpağını arata qoyur, arxları, kanalları təmizləyir. O, torpağı qırxdan çıxaran bu Böyük Çillədə bağ-bağatı, bostan-tərəvəz sahələrini suvarır. El arasında “çillə suyu” adlanan bu suvarma torpağın nəmliyinə kömək edir, şoranlaşmanın qarşısını alır, torpağı dondurmaqla ziyanvericiləri qırır.

Böyük Çillənin başlanğıcı günü ilin ən uzun gecəsi olduğundan buna çillə gecəsi də deyirmişlər. Həmin axşam adamlar qışdan qorxmadıqlarını nümayiş etdirmək üçün tonqallar yandırır, odun üstündən hoppanır, tonqalın ətrafında rəqslər edir, əyləncəli oyunlar, tamaşalar göstərirdilər. Böyük Çillənin şərəfinə hər evdə açılmış süfrəyə dadlı, ləzzətli yeməklər qoyulurdu.

Ulularımız deyib ki, Böyük Çillədə torpaq qırxın çıxarır, Kiçik Çillədə isə torpaq səhər yuxusundadır. Böyük Çillə barədə el-oba arasında gəzən maraqlı deyimlər də var. Belə söyləyirlər ki, bir gün Böyük Çillə deyir: - Mən dolu qazanlar üstə gəlmişəm, qarıları sağlam görmüşəm, təndirləri yandırtmışam, kürsüləri qurdurtmuşam, küplərin, çuvalların ağızlarını açdırmışam.

Böyük Çillə 40 gün dövran sürüb gedir və yolda Kiçik Çillə ilə rastlaşır. Kiçik Çillə soruşur: - Ay Böyük Çillə, de görüm, qırx gün gəlib atını çapdın, bu qırx gündə nə gördün, neylədin?

Böyük Çillə gördüyündən, etdiyindən söhbət açır. Kiçik Çillə istehza ilə gülüb cavab verir: - Eh, sən heç nə eləməmisən ki... Mən gəlmişəm, gör indi nələr edəcəyəm, nə tufan qoparacağam? Qazanları ağzı üstə çevirəcəyəm, küpləri, xaralları boşaldacağam, üzüqoylu qoyub gedəcəyəm.

Onun coşduğunu görən Böyük Çillə deyir: - Çox da öyünmə, sən insanları tanımırsan. Mən qırx günlük ömrümlə bir iş görə bilmədim. Sənin isə cəmi iyirmi günlük ömrün var. Bu iyirmi gündə heç yel də olub onların yanından ötə bilməzsən. Çünki üzün yazadır, ömrün də azdır.

Böyük Çillə girəndə və çıxanda ulularımız məclis qurmuş, şirniyyat, isti xörəklər bişirmiş, əhvallarını xoş saxlamışlar. Adamlar bu üsulla təbiətə təsir etmək, qışa bağlı olanları mülayimləşdirmək istəmişlər.

Böyük Çillənin ən məşhur ayini səməni göyərtmək və ondan halva bişirməkdir. Bu “Səməni bayramı” çoxsaylı mərasim ayinlərindən biridir. Baharı çağırmaq, bununla da təbiəti yaşıl görmək, əkdiyi taxılın göyərməsi arzusunun simvolunu yaratmaq təşəbbüsündən irəli gələn səməni göyərtməyin tarixi əcdadlarımızın ilkin əmək, təsərrüfat həyatı ilə bağlıdır. Yaşayışını, dolanışığını təsərrüfat ilinin - baharın, yazın başlamasında görən əcdadlarımız taxılı ev şəraitində göyərtməklə yazın tez gəlməsini, torpağın oyanmasını, məhsulun cücərib böyüməsi arzusunu ifadə etmişlər.

Estetik düşüncədə Çillə şaxələndirilir, onun boy-buxunu, gücü və ümumilikdə daxili aləmi, xilqəti barədə söz açılır. Mərasim nəğmələrində Böyük Çillə xoşqılıqlıdır, insana o qədər də ziyan vurmur. Çillə nəğmələrindən birində deyilir:

*Böyük Çillə, boyu bir belə...*
*Gəldi elə, gülə-gülə.*
*Ağ gülünü də göstərdi,*
*Ağ dilini də göstərdi.*
*Nə nənəmi dağlatdı,*
*Nə bir uşağı ağlatdı.*
*Nə ağrı verdi elə,*
*Nə ağır söz aldı dilə.*
*Ötdü belə-belə,*
*Getdi gülə-gülə.*

Ulularımız qışı qarşılamaq mərasiminə “Kovsəc”, yola salma mərasiminə isə “Çilləkəsdi” və ya “Çilləçıxartma” deyirmişlər.

Fevral ayının əvvəlindən başlayaraq iyirmi gün davam edən Kiçik Çillə qışın oğlan çağı sayılır. Bu çillə soyuqluğu, boran-tufanı, şaxta-sazağı ilə seçilir. Kiçik Çillənin “Xıdır Nəbi” adlanan birinci ongünlüyü isə, ümumiyyətlə, qış fəslinin ən sərt, çovğunlu, dondurucu vaxtı sayılır.

Kiçik Çillədə qış çox hirsli gəlir. Bir əlində qılınc kimi şaxta, bir əlində çovğun, boran, div nərəli külək.

Kiçik Çillənin də özünəməxsus təbiəti onunla bağlı nəğmələrdə əks olunmuşdur. Həmin nəğmələrdə ulu əcdadlarımızın erkən təsəvvürləri, yaratdığı mifoloji obrazlar, deyim və ifadələr, bəzənsə daha dolğun, mifik süjetlər, yaxud onların müəyyən motiv və obrazları verilmişdir:

*Kiçik Çillə, boyu bir belə,*
*Hikkəsi bir belə...*
*Gəlişi oldu haynan,*
*Gedişi oldu vaynan.*
*Əlində qırmanc,*
*Eli-günü yandırdı.*
*Neçə günahsız doqqaz bağladı,*
*Neçə alaqapı sındırdı.*
*Kəsdi neçə evin yağmasın,*
*Pendirin, çörəyin, ağmasın.*
*Axırda zara gəldi el,*
*Oturub şər üstündə*
*Zarın-zarın ağladı.*
*Bu kiçicik Çillənin*
*Bu piscik Çillənin*
*Əl-qolunu bağladı.*

Bu nəğmələrdə əslində bir arzu - qışın qurtarması, insanların çətinlikləri başa vurub yaza çıxmaq istəkləri ifadə edilir.

*İradə ƏLİYEVA,*
*“Azərbaycan”*

# Mətbuatda reklam

*(əvvəli ötən sayımızda)*



**2. Jurnallar.** Jurnallar (ing. magazines) həftədə ən azı 1 dəfə buraxılan, bir qayda olaraq, qəzetlərə nisbətən daha bahalı kağız növlərindən hazırlanan və ümumi maraq, fəaliyyət növü, iqtisadi, siyasi, sosial üstünlüklər və digər əlamətlərlə birləşən şəxslərə ünvanlanmış informasiyanı əks etdirən, dövri dərc olunan nəşrlərdir.

Tipindən və təyinatından asılı olaraq, jurnallar müxtəlif buraxılış müddətinə, müxtəlif tirajlara və formatlara malikdir. Ən çox yayılmışdır: həftədə 1 dəfə (həftəlik jurnallar), ayda 1 dəfə (aylıq jurnallar), ayda 2 dəfə (iki aylıq jurnallar), ayda 3 dəfə (rüblük jurnallar), illik nömrələmə (numerasiya); tam rəngli nəşr; tullanmış vərəqlərdə çap olunma. Bütün jurnallar verilmiş (müəyyən olunmuş) nəşr üçün rəsmi təsdiq olunan daimi tematik rubrikaya (sərlövhəyə) malikdir. Əsas buraxılışla yanaşı, jurnal əlavələr hesabına geniş variantda dərc oluna bilər.

| Dövrilik | Nəşr tipi | Yayılma |
|---|---|---|
| 1.Həftəlik jurnallar<br>2. Aylıq jurnallar<br>3.Ayda iki dəfə buraxılan jurnallar<br>4. Rübdə bir dəfə buraxılan jurnallar | 2. Tematik istiqamət üzrə:<br>-universal jurnallar;<br>-ixtisaslaşmış jurnallar.<br>2. Auditoriyanın əhatəsinə görə:<br>- müxtəlif qrup mənafeləri üçün jurnallar;<br>-qadınlar və kişilər üçün jurnallar;<br>- müxtəlif etnik icmalar üçün jurnallar;<br>- müxtəlif konfessiya icmaları üçün jurnallar.<br>3. Məqsədli təyinatına görə:<br>- işgüzar jurnallar;<br>-ictimai-siyasi jurnallar;<br>- sahə jurnalları;<br>- əyləncə jurnalları;<br>- elmi-kütləvi jurnallar;<br>- ədəbi-bədii jurnallar. | 1. Beynəlxalq jurnallar<br>2.Ümummilli jurnallar<br>3.Regional jurnallar |

**Jurnalların bəzi xüsusiyyətləri:**

1.Qəzetlərlə müqayisədə az tirajlar; nisbətən az operativlik; ərazisinin az yayılma əhatəsi.

2. Nəşrin nüfuz amilinin olması. Jurnallar imic reklamının yerləşməsi üçün ən səmərəli daşıyıcıdır.

3. Auditoriyanın yüksək seçim səviyyəsi. Yüksək seçim səviyyəsi nəticəsində jurnallar (xüsusi peşə jurnalları) bu və ya digər məqsədli qruplara reklam müraciətinin ötürülməsinin ən səmərəli vasitələrindən biridir.

4. Qəzet reklamı ilə müqayisədə reklam "həyatının" böyük davamiyyətli olması.

5. Reklamın yerləşməsinin yüksək dəyərdə olması. Bir reklam kontaktına düşən nisbətən yüksək xüsusi çəkidə məsrəflər.

6.Yüksək poliqrafik keyfiyyət.

Qəzet və jurnalların reklam imkanları

Qəzet və jurnallar ənənəvi olaraq mətbuatda reklam seqmentinin əsas hissəsini tutur. Belə bir vəziyyət qəzet və jurnal tiplərinin çoxnövlüyü, auditoriyanın yüksək məcmu halda əhatəsi və onun məqsədli seqmentləşməsi imkanları ilə şərtlənir. Qəzet və jurnal nəşrlərini buraxan müasir nəşriyyat evləri, bir qayda olaraq, iki əsas gəlir mənbəyinə malikdir: nəşrin satışından (abunə və pərakəndə satış üzrə) və reklam fəaliyyətindən əldə olunan gəlir, bununla belə, məhz reklam gəlirləri nəşriyyatlar tərəfindən qazanılan bütün vasitələrin orta hesabla 50%-dən 80%-ə qədərini təşkil edərək, başlıca rol oynayırlar. Belə bir iqtisadi model reklam vericilərə qəzet və jurnalların reklam imkanlarından səmərəli istifadə etməyə imkan verir. Reklam vericilərin artan tələbatı, bazarda yüksək rəqabət, eləcə də nəşriyyat evlərinin öz potensialından (informasiya, yaradıcı, texniki və yayıcı imkanlardan) səmərəli istifadə edilməsinə istiqamətlənməsi ilə əlaqədar müasir reklam xidmətləri reklamvericilərə kompleks reklam xidmətləri təqdim edirlər. Xidmət dedikdə reklam vericinin marketinq məqsədlərinə, strategiyasına, taktikasına və nəşrin auditoriyasına reklam təsirinin müxtəlif variantları başa düşülür. Müasir qəzet və jurnallarda reklamvericilər reklamın müxtəlif növlərindən istifadə edə bilərlər: modul, sətir, rubrika (sərlövhə), sponsor reklamı və s. Eləcə də original maketləri və müxtəlif reklam materiallarını hazırlaya, marketinq tədqiqatları apara, poçt göndərişlərini həyata keçirə, xüsusi aksiyaları yerinə yetirə bilərlər və s.

*(davamı var)*

*F.M.QARAYEV,*
*BDU-nun dosenti*

# PAŞA Bankın dəstəyi ilə "Davamlı Müəssisənin İnkişaf Proqramı"nın yekun mərhələsi keçirildi

2 fevral 2016-cı il tarixində ölkənin ən iri banklarından biri olan - PAŞA Bankın dəstəyi ilə Gənclər və İdman Nazirliyi və Azərbaycan gənclərinin nailiyyəti ictimai birliyi region gənclərinin sahibkarlıq fəaliyyətinin inkişafına yönəlmiş "Davamlı Müəssisənin İnkişaf Proqramı"nın yekun mərhələsinə həsr olunmuş "Biznes Günü" tədbirini keçiriblər.

Öz giriş nitqində PAŞA Bankın İdarə Heyətinin üzvü, Baş hüquq inzibatçısı Şirin Əliyeva vurğulamışdır ki, bir maliyyə qurumu kimi müxtəlif növ bank xidmət və məhsulları təklif etməklə yanaşı, Bank ölkəmizin davamlı inkişafına, ictimaiyyətin rifahına dəstək olmağa çalışır. "PAŞA Bank Korporativ Sosial Məsuliyyəti Proqramları çərçivəsində sahibkarların və gənclərin təhsili və inkişafına böyük sərmayələr qoyur. Bankımızın əsas məqsədlərindən biri gənc sahibkarların iqtisadi təhsili, işə hazırlığı və gələcəkdə cəmiyyətdə layiqincə yer tutmalarına yardım etməkdir", - deyə Ş.Əliyeva bildirib.

"Biznes günü" tədbirində ən yaxşı 7 biznes planın təqdimatı keçirildi və ekspert qrupu tərəfindən qiymətləndirildi. Təqdim olunan biznes planların həyata keçirilə bilmə dərəcəsi, rəqabətə davamlılığı, yeniliyi və biznes fəaliyyətinin inkişaf planı əsasında 3 ən yaxşı biznes planı seçilmişdir.

Qeyd edək ki, 2015-ci ilin sentyabr ayında başlayan "Davamlı Müəssisənin İnkişaf Proqramı" kiçik və orta müəssisənin yaradılması və idarə edilməsi üçün gənc sahibkarları zəruri bilik və bacarıqlarla təmin etmək məqsədi daşıyırdı.




# İMSİ üzvlərinə pulsuz stomatoloji xidmət göstərilib

**Azercell Telekom MMC-nin Mobil Diş Klinikası qış aylarında fəaliyyətini davam etdirib. Kimsəsiz uşaqlara, aztəminatlı ailələrə, qaçqın və məcburi köçkünlərə xidmət göstərən klinikanın həkimləri təkcə dekabr və yanvar aylarında 200 xəstəni müayinə və müalicə ediblər.**




Dekabr və yanvar aylarında Mobil Diş Klinikasının həkimləri həmçinin İMSİ (İnternat məzunlarının sosial inteqrasiyası) Gənclər Birliyinin üzvləri üçün pulsuz müayinə təşkil ediblər. Klinikanın həkimləri 67 nəfəri müayinədən keçirib və lazımı tədbirlər görülüb.

Qeyd edək ki, Azercell Telekom MMC bu klinikanın yaradılması layihəsini "Üfüq" Xeyriyyə Cəmiyyəti ilə birlikdə həyata keçirib. Fəaliyyət göstərdiyi 6 il ərzində layihə çərçivəsində 4000-dən çox insan Mobil Diş Klinikasının həkimləri tərəfindən müayinə edilib və eyni zamanda ehtiyac olduğu tədqirdə müalicə alıblar.

Azərbaycandakı uşaq evlərinin 90 faizinin ayrıca stomatoloji kabineti olmadığını nəzərə alaraq "Azercell" Mobil Diş Klinikasını ən müasir tibbi avadanlıqla təchiz edib. Yalnız Bakıda deyil, respublikadakı bütün kimsəsiz uşaqlara yardım etməyi hədəfləyən Mobil Diş klinikası indiyə qədər Şəki, Quba, Qusar və Balakənddə yerləşən İnternat məktəbi və uşaq evində, Gəncədə SOS Uşaq kəndi və İnternat Məktəbində, Lənkəranda Uşaq evində, Lerik İnternat Məktəbində, Biləsuvarda Qaçqın düşərgəsində, internat məktəbində ehtiyacı olan uşaqlara xidmət göstərib.

## DÜNYA



## Ərdoğan: "Türk xalqını terrorla qorxutmaq mümkün deyil"

Millətimizin birliyi və bərabərliyinə qarşı yönəlmiş bu terror aktları bizi bu qüvvələrlə mübarizədə yalnız birləşdirir. Trend-in Anadolu agentliyinə istinadən verdiyi məlumata əsasən, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada baş verən terror aktı ilə bağlı deyib.

"Türkiyənin özünümüdafiə hüququ müzakirə olunmur, biz hüququmuzu hər yerdə və hər zaman, lazım bildikdə istifadə edəcəyik", - deyə Ərdoğan bildirib.

Prezident Ərdoğan həmçinin bildirib ki, türk xalqını terrorla qorxutmaq mümkün deyil.

O bildirib: "Biz terrorizmlə mübarizə yolundan dönməyəcəyik, həm Türkiyədə, həm də ölkədən kənar mübarizəni davam etdirəcəyik. Verdiyimiz qurbanlar səbrimizi tükəndirir."

Qeyd edək ki, dünən fevralın 17-si axşam saatlarında Türkiyənin paytaxtı Ankarada güclü partlayış baş verib. Hadisə nəticəsində 28 nəfər ölüb, 61 nəfər yaralanıb.

## Ankarada törədilən terror aktını PKK və YPG birlikdə həyata keçirib

Fevralın 17-də Ankaranın mərkəzində çoxsaylı insan tələfatı ilə nəticələnən terror aktı Suriya əsilli terrorçu-kamikadze Salih Neccar tərəfindən həyata keçirilib. 1992-ci il təvəllüdlü S.Neccarın terrorçu YPG mənsubu olduğu bildirilir. Bu terror aktını da PKK və YPG birlikdə həyata keçirib.

Bu barədə ictimaiyyətə məlumat verən Baş nazir Əhməd Davudoğlu deyib ki, baş vermiş qanlı terrorla bağlı 9 nəfər şübhəli qismində saxlanılıb. Baş nazir bildirib ki, "Əl-Qaidə" və İŞİD təmsilçiləri Suriya böhranının həlli məsələsindəki danışıqlarda masa arxasında otura bilmədikləri kimi bu hüquq YPG-yə də verilə bilməz.



Qeyd edək ki, YPG Kürd Fəhlə Partiyasının (PKK) Suriya qolu olan PYD-nin silahlı qanadıdır.

## "Toyota Motor" 3 milyona yaxın avtomobili geri çağırır

Yaponiyanın tanınmış "Toyota Motor" avtomobil istehsalı şirkəti 2,9 milyon avtomobilini geri çağırır.

Avtomobillərin geri çağırılma səbəbi təhlükəsizlik kəmərləri ilə bağlıdır.

Geri çağırılan avtomobillər 2005-ci il iyul - 2014-cü il avqust aylarında istehsal olunan, bütün dünyaya satılan "RAV4 SUV" modeli və 2005-ci il oktyabr - 2016-cı il yanvar aylarında istehsal edilən və yalnız Yaponiyada satılan "Vanguard SUV" modelidir. Bu avtomobillərin 1,3 milyonu Şimali Amerikadan, 625 min ədədi Avropadan, 434 min Çindən, 177 min Yaponiyadan və 307 min ədədi dünyanın digər bölgələrindən geri çağırılacaq.



Şirkətdən bildirilib ki, avtomobillərin təhlükəsizlik kəmərlərində olan nasazlıq aradan qaldırılaraq istehlakçılara geri veriləcək və heç bir əlavə ödəniş alınmayacaq.

## Miqrant axınının dayandırılması Avropa İttifaqının prioriteti olmalıdır



Çexiya, Slovakiya, Polşa və Macarıstan Avropa İttifaqının bu həftənin sonuna nəzərdə tutulan sammitində miqrasiya böhranının aradan qaldırılması yolunda miqrant axınının dayandırılması məsələsinin prioritet kimi göstərilməsinə nail olmaq niyyətindədirlər. "Vışeqrad dördlüyü" ölkələri Yunanıstanda və İtaliyada miqrantların qeydə alındığı və sığınacaq verilməsi üçün ərizələrə baxıldığı hotspotlar barədə məlumatı da Avropa İttifaqı sammitinin yekun qətnaməsinə daxil etməyi planlaşdırırlar.

Macarıstan KİV-inin yazdığına görə, bu məsələ Vışeqrad qrupunun Praqa sammitinin əsas nəticəsi olub.

Təsisçi:
akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor: Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Ədalət Muradov, Elşad Səmədzadə, Müşfiq Atakişiyev, Mirdamət Sadıqov, Mehriban Alışanova, Xanhüseyn Kazımlı, Məhiş Əhmədov, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Cahangir Qocayev.

Kompyuter mərkəzinin direktoru:
Oqtay ORUCLU
oktay_oruc@mail.ru

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566-09-60
Ümumi şöbə: 514-14-27 (fax)
Mühasibatlıq: 566-63-08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir.
"İQTİSADİYYAT" qəzetinin kompyuter mərkəzində yığılmış və səhifələnmiş, "Zaman-Azər" MMC firmasının mətbəəsində çap edilmişdir.
Lisenziya: 022201 İndeks: 0355 Tiraj: 3400